Həmçinin, kafedrada 26 nəfər – tədris yardımçı personal fəaliyyət göstərir: onlardan 1 nəfəri – muzey müdiri; 5 nəfəri – laborant; 1 nəfəri – baş preparator; 9 nəfəri – preparator; 3 nəfəri – meyitxana xidmətçisi; 7 nəfəri – xadimə vəzifəsini yerinə yetirir.

Kafedranın yaradılmasının 100 – illik yubileyi münasibəti ilə ölkə Prezidenti cənab İlham Əliyevin səhiyyəyə, təhsilə, elmə göstərdiyi diqqət və qayğısı sayəsində kafedrada yenidən qurulan, ən yeni avadanlıqlarla təchiz edilən təhsil və elm ocağı bu yaxınlarda professor-müəllim heyətinin və tələbələrin ixtiyarına verildi. Bu münasibətlə Azərbaycan Respublikasının səhiyyə naziri cənab Oqtay Şirəliyev və Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli 2019-cu il fevralın 19-da kafedraya gələrək həmin mərkəzlə yaxından tanış oldular, kafedranın professor-müəllim heyətini, tələbələri şərəfli yubiley münasibəti ilə təbrik etdilər, arzu və təkliflərini bildirdilər.

Mən də, bu günkü fürsətdən istifadə edərək, kafedranın bütün əməkdaşları adından, eləcə də öz adımdan hər zaman bizə yaxından diqqət və qayğı göstərdiklərinə görə ölkə Prezidenti cənab İlham Əliyevə, həmçinin, Azərbaycan Respublikasının səhiyyə nazirliyi və Azərbaycan Tibb Universitetirəhbərliyinə səmimi minnətdarlığımızı bildirir, dərin təşəkkürlərimizi yetirirəm.

VAQİF ŞADLİNSKİ,
ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri,
ə.e.x., professor

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
İcmal məqalə
Səh. 21-26

Bədən kütləsi indeksinin konstitusional-tipoloji xüsusiyyətləri qida statusunun ən mühüm səciyyələndiricisi kimi

Allahverdiyev M.Q., Kəsəmənli Ə.K.[1]

[1] İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün :** AZ1078, Bakı şəhəri, Abbas Səhhət küçəsi 25, mən. 30, e-mail: allaxverdiyev1912@yandex.ru

Tədqiqatın məqsədi. Tədqiqat işinin məqsədini 16-20 yaşlı qızlarda boy-çəki göstəricilərinin və BKİ-nin konstitusional-tipoloji xüsusiyyətlərinin təyini təşkil edir..

Material və metodlar. Antropometriya və bioimpedansometriya üsulları ilə Azərbaycan milliyyətindən olan 755 nəfər 16-20 yaşlı qızlar tədqiq olunubdur ki, onlardan da 329 nəfərini 16-17, 426 nəfərini isə 18-20 yaşlı qızlar təşkil edibdir.

Nəticələr. Əldə edilən dəlillərə görə müayinə olunan 16-17 yaşlı qızlar arasında 74 nəfər – leptosom, 99 nəfər – mezosom, 126 nəfər – meqalosom, 30 nəfər – qeyri-müəyyən konstitusiya tipinə aid edilib. 18-20 yaşlı qızların nümayəndələrində isə leptosom konstitusiya tipini – 78, mezosomu – 160, meqalosomu – 140, qeyri-müəyyən konstitusiya tipini – 140 nəfər təşkil edib. BKİ-nin somatotiplikdən və yaşdan asılı olaraq təhlili çox ciddi fərdi və somatotipoloji variasiya göstəricilərinin olmasını aşkar etdi. Beləliklə, müəyyən olundu ki, digər müəlliflərin qeyd etdikləri kimi Azərbaycan milliyyətindən olan qızlarda da normada BKİ-nin qiyməti, yüksək dərəcədə, birbaşa qızların bədən kütləsi tipindən asılıdır; ona görə də BKİ-yə somatotipoloji qiymətləndirmə aparılmadan baxılması dürüst hesab edilə bilməz.

Açar sözlər : antropometriya, bioimpedanslar, bədən kütləsi indeksi, somatotiplər, konstitusiya qrupları, qızlar.

Aktuallıq. Nutrisiologiya, dietologiya, qastroenterologiya və bir sıra digər kliniki sahələrdə qida statusunun düzgün qiymətləndirilməsi mühüm diaqnostik əhəmiyyət kəsb edir. Bazu əzələlərinin dairəvi ölçüsü, bazunun arxa nahiyəsində dəri-piy büküşü qalınlığının göstəricisi üzrə qida statusunun qiymətləndirilməsi üçün təklif olunan metodlar son dərəcə təxminidirlər və hətta, onları ekspress-diaqnostikanı həyata keçirmək üçün belə yararsızdırlar [6, 7]. Bu Məqsədlə bədən kütləsi indeksinin (BKİ) təhlilindən istifadə etmək üsulu ümumi qəbul edilmiş üsul hesab edilir və BKİ-nin qiymət göstəricisini bilməklə, bədənin piy yığıntısının vəziyyəti – onun piy kütləsinin defisiti və ya artıqlığı, yəni alimentar piylənmə haqqında mühakimə yürütmək mümkün olur. Qida statusunun pozulmaları alimentarlıqdanasılı xəstəliklərin (ateroskleroz, hipertoniya xəstəliyi, şəkərli diabet), eləcə də digər qeyri-infeksion xəstəliklərin risk amilinin kəskin surətdə artmasına gətirib çıxarır [2]. Hesab edilir ki, BKİ-nin göstəricisinin normal qiyməti 18,5 – 24,9 kq/m^2 həddində olur. Onun qiymətinin 18,5-dən az olması bədən kütləsi azlığın (defisitinin) indikatoru kimi qiymətləndirilir, həmin göstəricinin qiymətinin 25,0 – 29,9 həddində olması – bədən kütləsinin artıqlığına, 30,0 rəqəmindən çoxluğu isə - alimentar piylənmənin mövcudluğuna dəlalət edir [5]. Lakin, belə qəbul edilibdir ki, bu indeksə ortalama qiymət kimi baxılır, yalnız,

nisbətən yaxın illərdə BKİ-nin qiymət göstəricisinin təyininə yaşla əlaqədar olaraq baxılmasına başlanılıbdır: belə ki, onun göstəricisinin 19-24 yaş qrupu fərdləri üçün 20 kq/m^2 –dən bir qədər az olması norma kimi qiymətləndirilir [8]. Onu da qeyd etmək lazımdır ki, BKİ-yə, adətən, cinsi mənsubiyyət və bədən quruluşu tipi ilə əlaqədar baxılmır, bununla yanaşı, eyni zamanda konstitusiya kimi bütün metabolik proseslərdə onun izi görünür [4].

Tədqiqat işinin məqsədini 16-20 yaşlı bir qrup azərbaycanlı qızlarda bədənin boy-çəki göstəricilərinin və bədən kütləsi indeksinin konstitusional xüsusiyyətlərinin təyini təşkil edir.

Tədqiqatın material və metodları. Antropometrik və biompedans metodları ilə ("*Tanita*" aparatının köməyi ilə) 16-20 yaşlı azərbaycanlı qızlar öyrənilib ki, onlardan da 16-17 yaş həddinə aid – 329 nəfər, 18-20 yaş həddinə mənsub – 426 nəfər müayinə olunub. Müayinə olunanların iki yaş qrupuna (16-17 və 18-20 yaş qruplarına) bölünməsi gənclik yaşı dövrü boyunca onların fiziki inkişaf dinamikasının təyininin vacibliyi ilə şərtləndirilir. Bu vacibliyin faktiki göstəricisi də ondan ibarətdir ki, qızlarda 16-17 yaş həddindən 18-20 yaş həddinə keçiddə orqanizmdə ciddi hormonal dəyişikliklər gedir və məhz həmin dövrdə ikincili cinsi əlamətlər tam formalaşma kəsb edir [4]. Biz, müayinə olunan qızların sağlamlıq vəziyyətlərini "nisbi norma" kimi qiymətləndirdik. Materialdan – çıxarma meyarları qismində isə böyrək və böyrəküstü vəzilərin patologiyaları, hiperparatireodizm, hipoparatireodizm, bədxassəli şişlər, həzm traktının və qaraciyərin xroniki xəstəlikləri, şəkərli diabet, Pecet xəstəliyi, hipoqonadizm, revmatoid artriti, uzunmüddətli immobilizasiya və fiziki inkişafın formalaşmasına təsir göstərən digər xəstəliklərə malik şəxslərin müayinə olunanlar sırasına daxil edilməməsi təşkil edir. Müayinələr zamanı qızların boyu və bədən çəkisi müəyyən edilərək BKİ (1) bu formul üzrə təyin olundu: İ=P/L^2, burada P – bədən çəkisini (kq-la), L- boyu (m-lə) göstərir. Somatotipləşdirməni biləyin və topuqların diametrlərinin, biləyin və topuqüstü nahiyələrin dairəvi ölçülərinin, arxanın, bazunun, qarnın və budun dəri-piy büküşləri qalınlığı ölçülərinin qiymət göstəricilərini (kaliperometriya metodu), həmçinin, bədənin piy komponentinin mütləq tutumu göstəriciləri (bioimpedansometriya metodu) əsas götürərək Б.А.Никитюк – В.П.Чтецов (1990) sxemi üzrə apardıq. Orta riyazi göstəriciləri, onların xətalarını hesabladıq; fərqliliklərin dürüstlüyünü etibarlılıq intervalları metodu ilə müəyyənləşdirdik [1].

Tədqiqat işinin yekunları və onların müzakirəsi. Məlum olduğu kimi müasir təsnifat üzrə üç konstitusiya qrupu (kateqoriyaları) ayırd edilir. Bu qruplar (leptosom, mezosom, meqalosom) həddində yeddi somatotip ayırd edilir. Belə ki, leptosom konstitusiya qrupuna – astenik və stenoplastik; mezosom konstitusiya qrupuna – piknik və mezoplastik; meqalosom konstitusiya qrupuna – atletik, subatletik və euriplastik somatotiplər aiddir ki, bunlar da kifayət qədər nəzərə çarpan anatomo-antropometrik fərqliliklərə malikdirlər. Astenik somatotip arıq bədən quruluşunun, yastı, ensiz, uzunsov döş qəfəsinin, daxilə basılmış qarnının, ensiz çanağının, uzun və nazik ətraflarının olması ilə səciyyələnir; budlarını bir-birinə sıxdıqda onların arasında boş sahə qalır. Astenik somatotipə aid şəxslərdə əzələlər zəif inkişaf etmiş olur; onların gövdəsində, belində və oma nahiyəsində dərialtı piy təbəqəsi, demək olar ki, nəzərə çarpmır. Astenik somatotipin tərkibində iki variantın ayırd edilməsi qəbul edilibdir ki, bunlardan da biri – astenik naziksümüklü somatotip, digəri isə – astenik enlisümüklü somatotip adlanır. Leptosom konstitusiya qrupunun ikinci tipini təşkil edən stenoplastik somatotip astenik somatotipi səciyyələndirən əksər əlamətləri özündə əks etdirir, lakin asteniklərdən fərqli olaraq onlarda piy və əzələ toxumaları bir qədər yaxşı inkişaf edir.

Mezosom konstitusiya qrupuna aid edilən piknik somatotipə mənsub qızlar dərialtı piy təbəqəsinin mövcudluğu və hərdən yüngülvari artıqlığı, stenoplastik somatotipə mənsub qızlarla müqayisədə ətraflarının bir qədər qısa, başının və

üzünün formasının dairəvi, boynunun nisbətən, dolu və qısa çiyinlərinin bir qədər enli və girdə olması ilə səciyyələnirlər. Silindrəbənzər döş qəfəsinə, girdə qarına, dərialtı piy təbəqəsinin mövcudluğu ilə səciyyələnən enli çanağa, girdə budlara, budları sıxarkən onların tam təmasına, zərif və hamar dəriyə malik olma piknik somatotipə mənsub qızlara xas olan xüsusiyyətlərdir; onlarda Михаэлис rombunun cizgiləri ilə birlikdə oma çuxuru çox aydın nəzərə çarpır. Mezosom konstitusiya qrupuna aid mezoplastik somatotipə mənsub qızlar isə bəstəboylu, enlikürəkli, dolubədənli fiquraya, əzələ vətərlərinin xeyli dərəcədə inkişaf etməsinə, mütənasib inkişaf etmiş möhkəm əzələlərə, kifayət qədər kütləli skelətə malikliklərı ilə xarakterizə olunurlar. Piknik somatotiplə müqayisədə, stenoplastik somatotipin daşıyıcılarında dərialtı piy təbəqəsinin yaxşı inkişaf etməsi qeyd olunur.

Meqalosom konstitusiya qrupuna aid olan atletik somatotipə mənsub qızlarda skelet əzələlərinin və bədənin sümük komponentinin güclü, dərialtı piy təbəqəsinin isə zəif inkişaf etməsi müşahidə edilir. Həmin konstitusiya qrupuna aid subatletik somatotipə mənsub qızlar şümal və hündürboylu olmaları, əzələ komponenti və dərialtı piy təbəqəsinin mütənasib inkişafı ilə diqqəti cəlb edirlər. Meqalosom konstitusiya qrupuna aid euriplastik somatotipə mənsub qızları məcazi mənada – "atletik kök tip qızlar" adlandırırlar. Bu somatotipin nümayəndələrində atletik somatotipə mənsub qızlar üçün tipik sayılan skeletin və əzələlərin struktur göstəricilərinə bahəm, dərialtı piy təbəqəsinin də yaxşı inkişaf etməsi qeyd olunur. Eruplastik somatotipdə iki variant ayırd edilir: onlardan biri euriplastik alçaqboylu somatopdir və onların boyu 165 sm-dən az olur; digəri isə euriplastik hündürboylu somatotip adlandırılır və onların boyu 165 sm-dən çox olur [4].

Müasr təsnifata uyğun olaraq, bizim tərəfimizdən qeyri-müəyyən konstitusiya qrupu da müəyyən edilib.

Aparılan tədqiqat nəticəsində əldə etdiyimiz dəlillərə görə, 16-17 yaş həddinə aid müayinə olunan qızlar arasında leptosom konstitusiya 74 halda, mezosom – 99 halda, meqalosom – 126 halda, qeyri-müəyyən – 30 halda qeydə alınıb. 18-20 yaş həddində olan qızların təmsilçilərindən leptosom konstitusiyaya mənsub olanlar – 78, mezosom konstitusiyaya aid olanlar – 160, meqalosom konstitusiya nümayəndələri – 140 və qeyri-müəyyən konstitusiya tipini təşkil edənlər – 48 hallarda idenfikasiya olunublar.

Qeyd olunan yaş qruplarına mənsub qızlarda boy-çəki göstəriciləri nəzərə çarpan dərəcədə konstitusional xüsusiyyətlərə malikdirlər (cəd.).

Cədvəl

Yaş aspektində müxtəlif konstitusiyalara mənsub qızlarda boy-çəki göstəricilərinin xüsusiyyətləri *(X±Sx; min - max).*

Göstərici / yaş	Konstitusiya tipi			
	Leptosom	Mezosom	Meqalosom	Qeyri-müəyyən
Boyun uzunluğu (sm-lə)				
I	159,5±0,58 142,3-165,1	161,6±0,27 152,2-165,2	167,0±0,67 154,8-187,1	164,2±0,6 160,2-170,2

II	160,8±0,55 142,4-165,3	161,8±0,19 154,3-165,2	168,4±0,54 156,2-190,3	164,6±0,45 156,3-170,4
Bədən kütləsi (kq-la)				
I	44,3±0,45 36,3-54,4	56,4±0,47 42,5-64,9	70,8±0,54 56,4-82,7	63,1±0,54 56,9-70,2
II	45,2±0,39 39,8-56,3	68,4±0,48 54,3-82,3	77,5±0,55 62,3-98,2	67,2±0,64 60,5-75,3
BKİ (kq-/m^2-lə)				
I	17,3±0,29 12,5-24,32	25,2±0,26 14,7-27,4	25,5±0,22 20,2-30,4	22,9±0,28 18,4-25,7
II	17,7±0,18 15,2-23,3	26,2±0,13 22,3-29,5	25,3±0,17 20,2-30,2	24,7±0,37 20,2-30,2

Qeyd: I – 16-17 yaşlı qızlar; II – 18-20 yaşlı qızlar.

Cədvəldən göründüyü kimi leptosom konstitusiya tipinə mənsub 16-17 yaş həddində olan qızlarda boyun uzunluğu mezosom konstitusiya tipinə aid qızlardakından 1,01 dəfə ($p>0,05$), meqalosom konstitusiya qrupu daşıyıcılarındakı bu göstəricinin qiyməti ilə müqayisədə - 1,05 dəfə ($p<0,05$) və qeyri-müəyyən kosntitusiya qrupuna aid qızlardakı göstəricinin qiymətindən – 1,03 dəfə ($p>0,05$) az olur. Leptosom konstitusiya qrupuna mənsub 18-20 yaş həddində olan qızlarda isə boyun uzunluğunun mezosom konstitusiya qrupu nümayəndələrindəki göstəricinin qiyməti ilə müqayisədə 1,01 dəfə ($p>0,05$), meqalosom konstitusiya qrupu təmsilçilərindəki göstəricinin qiymətinə nisbətən – 1,05 dəfə ($p<0,05$) və qeyri-müəyyən konstitusiya qrupuna aid qızlardakı göstəricinin qiymətindən – 1,02 dəfə ($p>0,05$) az olması qeyd olunur.

Leptosom konstitusiya qrupuna mənsub 16-17 yaş həddində olan qızlarda bədən kütləsi göstəricisi qiymətinin mezosom konstitusiya qrupu daşıyıcılarının bu göstəricisinin qiymətinə nisbətən – 1,28 dəfə ($p<0,05$), meqalosom konstitusiya qrupu təmsilçiləri ilə müqayisədə – 1,61 dəfə ($p<0,05$) və qeyri-müəyyən konstitusiya qrupu nümayəndələrindəki göstəricidən – 1,43 dəfə ($p<0,05$) az olması müşahidə edilir. Leptosom konstitusiya qrupuna mənsub 18-20 yaş həddində olan qadınlarda isə bu göstəricinin qiymətinin mezosom konstitusiya qrupu nümayəndələrindəki analoji göstəriciyə nisbətən – 1,52 dəfə ($p<0,05$), meqalosom konstitusiya qrupu təmsilçiləri ilə müqayisədə – 1,72 dəfə ($p<0,05$) və qeyri-müəyyən konstitusiya nümayəndələrindəkinə nisbətən – 1,49 dəfə ($p<0,05$) az olması qeyd edilir.

Leptosom konstitusiya qrupuna mənsub 16-17 yaş həddində olan qızlarda BKİ-nin qiyməti mezosom konstitusiya qrupu təmsilçilərindəki göstəricinin qiymətinə nisbətən – 1,46 dəfə ($p<0,05$), meqalosom konstitusiya

qrupuna aid qızlardakından – 1,47 dəfə ($p<0,05$) və qeyri-müəyyən konstitusiya qrupu nümayəndələrindəkindən – 1.32 dəfə ($p<0,05$) az olur. Leptosom konstitusiya qrupuna mənsub 18-20 yaş həddində olan qızlarda isə BKİ-nin göstəricisinin qiymətinin mezosom konstitusiya qrupu təmsilçilərindəki bu qiymətlə müqayisədə - 1,48 dəfə ($p<0,05$), meqalosom konstitusiya qrupu daşıyıcılarındakına nisbətən – 1,43 dəfə ($p<0,05$) və qeyri-müəyyən konstitusiya qrupu nümayəndələrindəki analoji göstəricidən – 1,40 dəfə az olması qeyd edilir. Beləliklə, bu nəticəyə gəlmək olar ki, leptosomiya zamanı hər iki yaş qrupuna aid qızlarda BKİ-nin qiyməti bütün hallarda digər konstitusiya qrupu nümayəndələrindəki göstəricinin qiymətindən az olur.

Somatotipdən və yaşdan asılı olaraq BKİ-nin dəlillərinin təhlili bu göstəricinin fərdi və somatotipoloji variasiyalarının olmasını aşkar etdi. 16-17 yaş həddində olan qızlarda normada BKİ astenik naziksümüklü somatotip daşıyıcıları (15,7 kq/m2; fərdi olaraq 12,4-dən 16,2 kq/m2-ə qədər) ilə müqayisədə, bu somatotipin enlisümüklü variantında (16,1 kq/m2) 1,03 dəfə ($p>0,05$), stenoplastik somatotipə mənsub qızlarda (20,2 kq/m2) – 1,23 dəfə ($p<0,05$), mezoplastik somatotipə aid nümayəndələrdə (24,6 kq/m2) – 1,56 dəfə ($p<0,05$), piknikdə (25,8 kq/m2) – 1,64 dəfə ($p<0,05$), atletikdə (23,1 kq/m2) – 1,47 dəfə ($p<0,05$), subatletikdə (24,2 kq/m2) – 1,54 dəfə ($p<0,05$), euriplastik alçaqboylu somatotipdə (28,8 kq/m2) – 1,83 dəfə ($p<0,05$), euriplastik hündürboylu somatotipdə (26,0 kq/m2) – 1,66 dəfə ($p<0,05$) və qeyri-müəyyən somatotipə aid nümayəndələrdə (22,9 kq/m2) – 1,33 dəfə ($p<0,05$) çox olur.

18-20 yaş həddində olan qızlarda isə normada BKİ astenik naziksümüklü somatotip daşıyıcıları (16,3 kq/m2; fərdi olaraq 15,0 kq/m2-dən 18,0 kq/m2-dək) ilə müqayisədə, bu somatotipin enlisümüklü variantında (16,9 kq/m2) – 1,03 dəfə ($p>0,05$), stenoplastik somatotipdə (20,0 kq/m2) – 1,23 dəfə ($p<0,05$), mezoplastikdə (26,2 kq/m2) – 1,61 dəfə ($p<0,05$), piknikdə (26,2 kq/m2) – 1,61 dəfə ($p<0,05$), atletikdə (23,6 kq/m2) – 1,44 dəfə ($p<0,05$), subatletikdə (24,2 kq/m2) – 1,48 dəfə ($p<0,05$), euriplastik alçaqboylu somatotipdə (27,6 kq/m2) – 1,69 dəfə ($p<0,05$), euriplastik hündürboylu somatotipdə (25,9 kq/m2) – 1,59 dəfə ($p<0,05$) və qeyri-müəyyən somatotipdə (24,7 kq/m2) – 1,52 dəfə ($p<0,05$) çox olur.

Beləliklə, tədqiqatın əldə olunan yekunlarının təhlili göstəriri ki, nisbi norma şəraitində BKİ-nin qiyməti xeyli dərəcədə qızların bədən quruluşundan asılıdır; bu göstəricilərə somatotipoloji mənsubiyyət nöqteyi-nəzərindən qiymətləndirmədən baxmaq düzgün deyildir. Əgər BKİ-nin qiyməti bir somatotipə aid qızlarda normal hesab edilirsə, müvafiq olaraq, digər somatotipə mənsub qızlar üçün bu qiymət norma həddindən kənara çıxa bilər. Belə dəlilin uçotunun aparılması, klinik fənlərin bütöv spektri üçün mühüm əhəmiyyət kəsb edir ki, bu əhəmiyyətin vacibliyi də qida statusu pozulmalarının və bununla birbaşa əlaqəli olan alimentarlıqdan asılı xəstəliklərin geniş yayılması ilə şərtləndirilir. Həmçinin elmi ədəbiyyatdan [3] o da məlumdur ki, qida statusu pozulmalarında ekspress-diaqnostika metodlarının tətbiqi ilə qida təlimi korreksiyasının aparılması, təkcə Avropa regionunda il ərzində orta hesabla 300 mindən çox insan ölümünün qarşısını ala bilər. Ona görə də, hesab edirik ki, bu növ anatomo-antropoloji tədqiqatların gələcəkdə də davam etdirilməsi, bütün yaş-cins qruplarını əhatə etməklə, belə tədqiqatların diapazonunun genişləndirilməsinin daima gündəmdə olması heç bir şübhə doğurmur.

Maliyyə mənbəyi : yoxdur.
Maraqların toqquşması : yoxdur.

Ədəbiyyat siyahısı

1. Автандилов Г.Г. Морфометрия в патологии. М., Медицина, 1982, 300 с.
2. Елизарова Е.С. Характеристика анатомических компонентов соматотипа детей подросткового возраста в норме и при синдроме вегетативной дисфункции /Автореф.дис. … канд.мед.наук. Волгоград, 2017, 24 с.
3. Мартинчик А.Н., Маев И.В., Янушкевич. Общая нутрициология. М.; МЕДпресс-информ., 2005, 392 с.
4. Никиттюк Б.А., Чтецов В.П. Морфология человека. М.; изд. МГУ, 1990, 320 с.
5. Никитюк Д.Б., Поздняков А.Л. Применение антропометрического подхода в практической медицине: некоторые клинико-антропологические параллели // Вопросы питания. М., 2007, вып. 4, с. 26-31
6. Никитюк Д.Б., Алексеева Р.Т., Миннибаев Т.Ш., Клочкова С.В. Алиментарно-зависимая патология и конституциональный подход: перспективы использования и результаты // Журнал анатомии и гистопатологии. Воронеж, 2014, т.3 вып. 1(9), с.16-19
7. Никитюк Д.Б., Клочкова С.В., Рожкова Е.А., Алексеева Н.Т., Миннибаев Т.Ш., Тимошенко К.Т. Антропометрическая характеристика физического статуса женщин зрелого возраста // Журнал анатомии и гистопатологии. Воронеж, 2015, т.4, вып.1 (13), с.9-14
8. Robergs R.A., Robergs S.O. Exercise physiology. Exercise, performance, and clinical applications. St Louis: Mosby Year Book, 1997, 567 pp.

RESUME

The constitutional typological features of body mass index as the most important characteristic of nutritional status

Allakhverdiyev M.K., Kesemenli A.K.

Department of Human Anatomy and Medical Terminology. Azerbaijan Medical University. Baku. Azerbaijan

Purpose of the study. The purpose of the research is to determine the height-weight indicators and the constitutional-typological features of the RDA in girls aged 16-20.

Material and Methods. Anthropometry and bioimppedance methods have been studied by 755 girls aged 16-20 in Azerbaijan, of whom 329 were 16-17 and 426 were girls aged 18-20.

Results. Among the 16-17-year-old girls surveyed, 74 were leptosomes, 99 were mezosomes, 126 were megalosomes, and 30 were unspecified. In the representatives of girls aged 18-20, the leptosome constitution type was 78, mesosomes 160, megalosomes 140, and indefinite constitution - 140. The BMI's somatotypic and age-specific analysis revealed very serious individual and somatotypic variation indices. Thus, it has been established that, as noted by other authors, the rate of BMI in the norm in girls of Azerbaijani nationality depends largely on the type of body mass of girls; Therefore, consideration of the BMI without somatotypic evaluation can not be considered honest.

Key words: anthropometry, bioimpedance, body mass index, somatotypes, constitution groups, girls.

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
Orijinal Məqalə
Səh. 27-34

Üz kəlləsinin asimmetriyasının aşkar olunmasında kraniometrik "Yelpik" üsulunun effektivlik dərəcəsinin öyrənilməsi

Əliyeva S.A., Şadlinski V.B.[1]

[1] İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün :** 1006, Azərbaycan, Baki, İsmayıl bəy Qurdqaşenli küç. 30, mən.45, E-mail: aliyevasabin@gmail.com

Tədqiqatın məqsədi. Kraniometrik "Yelpik" üsulunun üz kəlləsində asimmetriyasının aşkar olunmasında effektivlik dərəcəsinin öyrənilməsi olmuşdur.

Material və metodlar. Tədqiqat Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının əsaslı muzeyinin kranioloji kolleksiyasından xüsusi olaraq seçilib götürülmüş bətnxarici inkişafın müxtəlif dövrlərinə aid 120 insan kəllələri üzərində aparılmışdır. Kəllənin üz şöbəsində asimmetriya «Yelpik» üsulu ilə öyrənilmişdir. Bu üsula əsasən üz kləəsi yuxarı, aşağı və yan «yelpiklər»ə bölünmüşdür. Tədqiqat nəticəsində alınmış rəqəm göstəriciləri statistik olaraq işlənilmiş və təhlil olunmuşdur.

Nəticələr. Tədqiq olunan materialın bölgüsü göstərmişdir ki, tədqiq olunan materialın demək olar ki, yarısını orta üzlü, bir qədər az hissəsini uzun üzlü kəllələr təşkil etmişdir. Enli üz isə ən az kəllələrdə təyin olunmuşdur. Kəllələrin "Yelpik" üsulu ilə öyrənilməsi göstrəmişdi ki, üz kəlləsinin assimetriyanın ən böyük dərəcəsi nasion nöqtəsindən fronto-temporal nöqtəyə qədər olan məsafə üçün xarakterikdir. "Yuxarı yelpik"ın bütün 10 göstəricinin əks tərəfi ölçüləri arasında statistik cəhətdən əhəmiyyətli fərqlər yoxdur. "Yan yelpikdə" almacıq-əng nöqtəsindən alın-burun tikişinin bayır nöqtəsinə qədər olan məsafədə dəqiq şəkildə sağtərəfli asimmetriya (1,0); almacıq-əng nöqtəsindən dakriona qədər məsafədə dəqiq olan soltərəfli asimmetriya (-0.5) müəyyən edilir. "Aşağı yelpik"ın göstəricilərinin analizi nəticəsində müəyyən edilmişdir ki, subspinal nöqtədən burun-əng nöqtəsinə qədər olan məsafədə əhəmiyyətli dərəcədə sağtərəfli asimmetriya (1,0), subspinal nöqtədən burunun minimal eni arasındakı məsafədə əhəmiyyətli dərəcədə soltərəfli asimmetriya (-0,7), orta dərəcəli asimmetriya (0,5) subspinal nöqtədən burun-alın tikişinin bayır nöqtəsi arasındakı məsafədə müşahidə edilirsə də, subspinal nöqtədən infarorbital nöqtə arasındakı məsafədə asimmetriya qeyd edilmir (0).

Açar sözlər : Üz kəlləsi, assimetriya, "yelpik" üsulu.

Giriş. Asimmetriya müasir insan üzü üçün xarakterikdir və onun fərdiliyini üzə çıxaran əlamətlərdən biridir [1,2]. Lakin. müasir dövrdə üzün asimmetriyasının aktiv öyrənilməsi yalnız ilkin mərhələdədir [3].

Üzün həm yumşaq toxumalarında, həm də kəllə sümüklərində baş verən dəyişikliklər asimmetriyaya səbəb olur. Hal-hazırda üzün yumşaq toxumalarında gedən dəyişikliklərə çoxsaylı tədqiqat işlərinin [4,5,6,7] həsr olunmasına baxmayaraq kəllənin müxtəlif formalarında və müxtəlif yaş dövrlərində üzün sümük strukturlarında baş verən dəyişikliklər az öyrənilmişdir [3,8]. Üzün skeletində kosmetik və estetik baxımdan göz yuvaları, xarici burun, əng və çənə sümükləri mərkəzi yeri tutur ki, bu sümük strukturlarının forma və ölçüləri üzdə

asimmetriyanın formalaşmasında əhəmiyyətli rol oynayır [9].

Tədqiqatın vəzifəsi kraniometrik "Yelpik" üsulunun üz kəlləsində asimmetriyasının aşkar olunmasında effektivlik dərəcəsinin öyrənilməsi olmuşdur.

Material və metodlar. Tədqiqat Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının əsaslı muzeyinin kranioloji kolleksiyasından xüsusi olaraq seçilib götürülmüş bətnxarici inkişafın müxtəlif dövrlərinə aid 120 insan kəllələri üzərində aparılmışdır.

Tədqiqat Martin R. (1928) tərəfindən təklif edilmiş sonralar isə Алексеев В.П. (1966) tərəfindən təkmilləşdirilmişdirlən kraniometrik üsul ilə aparılmışdır. Bu üsul bütövlükdə kəlləni və ya onun ayrı-ayrı hissələrini antropoloji cəhətdən kompleks şəkildə öyrənilməsinə imkan yaradır [10].

Kəllədə bütün ölçmələr müasir kraniologiyada geniş istifadə olunan alətlərin - sürüşgən pərgar, qonometr, bucaqölçən xətkeş və s.vasitəsi ilə aparılmışdır (şək.2.2). Sürüşgən pərgar və qonometr vasitəsi ilə üz və beyin kəlləsinin ümumi ölçüləri, bucaq ölçən xətkeş vasitəsilə ilə isə göz yuvasının ölçüləri təyin edilmişdir.

Kəllənin üz şöbəsində asimmetriya «Yelpik» üsulu ilə öyrənilmişdir [11]. Bu üsula əsasən kəllənin üz şöbəsində 3 kraniometrik nöqtə əsas götürülür: 1. Nasion (N) – alın tikişi ilə burunarası tikişləri birləşdirən nöqtə; 2. Prostion (Pr) – əngin alveol çıxıntısının önə çıxmış nöqtəsi; 3. Zygon (Zyg) – almacıq sümüyünün ən çıxıq nöqtəsi.

Üz kəlləsi bu nöqtələrdən başlayan və ətraf kraniometrik nöqtələrdə tamamlanan məsafələrdən təşkil olunmuş yuxarı, aşağı və yan «yelpiklər»ə bölünmüşdür.

Tibbi və bioloji tədqiqatlar üçün ümumi qaydalara riayət etməklə, tədqiqat işinin rəqəm göstəriciləri statistik olaraq işlənilmiş və təhlil olunmuşdur.

Rəqəm göstəricilərinin «Statistical» (Statsoft, 1999) və Microsoft Excel Windows-7 tətbiqi proqramlar paketindən istifadə etməklə PC/AT «Pentium-IV»-də variasion statistika üsulu ilə hesablanması aparılmışdır.

Nəticələr və onların müzakirəsi. Tədqiq olunan materialın bölgüsü göstərmişdir ki, uzun üz (lepten, yuxarı üz indeksi 55-dən çox olan) 44 kəllədə, orta üz (mezen, yuxarı üz indeksi 50-dən 55-ə qədər) 58 kəllədə, enli üz (euryen, yuxarı üz indeksi 50-dən az olan) 18 kəllədə müşahidə olunmuşdur (cəd. 1).

Cədvəl 1

Kəllələrin yuxarı üz indeksi üzrə bölgüsü.

Kəllənin forması	Kəllələrin sayı	Faiz
Lepten	44	36,7±4,4
Mezen	58	48,3±4,6
Euryen	18	15,0±3,3
Cəmi	120	100%

Beləliklə, tədqiq olunan materialın demək olar ki, yarısını (48,3±4,6%) orta üzlü, bir qədər az hissəsini (36,7±4,4%) uzun üzlü kəllələr təşkil etmişdir. Enli üz isə ən az kəllələrdə (15,0±3,3%) təyin olunmuşdur.

Ümumiyyətlə, öyrənilən kəllələrin kraniotasimmetriyalər üzrə bölgüsü göstərmişdir ki, tədqiqat materialının böyük əksəriyyətini orta enə, hündürlüyə və üzə malik kəllələr təşkil etmişdir.

Tədqiqatda kələlərdə asimmetriyaya və onun təzahür dərəcəsini öyrənmək üçün, kraniometriyanın "Yelpik" kimi adlanan orijinal metoddan istifadə etmişik.

Bu metodda ölçülə bilən göstəricilərr qismən qeyri-standart və qismən də standartdır. Bütün ölçülər müvafiq "standart" nöqtələrdən (nasion, subspinaie. zygomaxillare) başlayan yuxarı, aşağı, yan yelpiklərə bölünür (cəd.2).

Cədvəl 2

Üz kəlləsinin «Yuxarı yelpik» də nazion nöqtəsindən başlayan ölçüləri.

№	Öyrənilən əlamət	Tədqiq olunan tərəf	Statik göstərici	
			Göstəricinin orta qiyməti (mm-lə)	Asimmetriyaya
1	n-zm	Sağ	69,0±0,51	0,5
		Sol	68,5±0,51	
2	n-fmt	Sağ	54,5±0,30	0,2
		Sol	54,3±0,48	
3	n-ft	Sağ	52,0±0,57	0,7
		Sol	51,3±0,29	
4	n-ap. inf	Sağ	49,5±0,37	-0, 5
		Sol	50,0±0,37	
5	n-ap.lat	Sağ	49,5±0,33	0,4
		Sol	49,1±0,33	
6	n-infr	Sağ	44,0±0,36	0
		Sol	44,0±0,35	
7	n-max nmp.	Sağ	27,5±0,20	0
		Sol	27,4±0,36	
8	n-da	Sağ	17,0±0,20	0
		Sol	17,0±0,21	
9	n-min en	Sağ	10,0±0,20	0
		Sol	10,0±0,20	
10	n-fti tikiş	Sağ	8,0±0,20	0,1
		Sol	7,9±0,20	

Beləliklə, assimetriyanın ən böyük dərəcəsi nasion nöqtəsindən fronto-temporal nöqtəyə qədər olan məsafə üçün xarakterikdir (0,7).

Tərəfimizdən müxtəlif formalı kişi və qadın kəllələrində "Yuxarı yelpik"ın göstəriciləri sağ və sol tərəfdə ölçülmüşdür (cəd.3).

Cədvəl 3

Müxtəlif formalı kişi və qadın kəllələrində “Yuxarı yelpik”in ölçülərinin müqayisəsi.

№ п/п	Məsafə (mm-lə)	Tədqiq olunan tərəf	Kəllənin müxtəlif formalarında statik göstərici					
			Eyren	P	Mezen	P	Lepten	P
Qadın								
1	n-zm	Sağ	63,05±0,7	-8	66,99±1,0	0,46	67,29±0,9	0,02
		Sol	63,23±0,5		67,45±1,1		67,27±0,9	
2	n-infor	Sağ	49,46±0,6	0,27	50,31±0,5	0,13	48,01±0,2	-2,67
		Sol	49,73±0,7		50Д8±0,5		50,68±0,7	
3	n-ap.lat	Sağ	40,34±0,3	-0,21	43,4±0,7	0,49	45,24±0,6	0,07
		Sol	40,55±0,4		42,91±0,6		45307±0,6	
4	n-ft	Sağ	39,68±0,8	-0,21	42,13±0,8	-0,24	43,35±0,8	-0,25
		Sol	39,75±0,7		42,17±0,8		44±0,8	
Kişi								
1	n-zm	Sağ	71,46±0,96	-0,47	71,06±0,97	-0,15	73,66±0,72	0,55
		Sol	71,93±1,04		71,21±0,97		73,11±0,83	
2	n-infor	Sağ	53,49±0,51	-0,01	52,85±0,64	0,03	55,86±0,23	2,92
		Sol	53,5±0,48		52,82±0,64		52,94±0,69	
3	n-ap.lat	Sağ	44,38±0,79	-0,03	45,76±0,49	0,08	47,54±0,61	1,23
		Sol	44,51±0,77		45,68±0,55		47,64±0,72	
4	n-ft	Sağ	44,29±0,77	-0,05	45,48±0,59	0,07	46,55±0,36	0,55
		Sol	44,34±0,68		45,41i0,57		46,0±0,52	

Qeyd: Burada və sonrakı cədvəllərdə P sağ və sol tərəfdə göstəricinin fərqlilik dərəcəsini ifadə edir.

Hər bir xüsusiyyət üçün sağ və sol ölçülər müqayisə edilmişdir. Cədvəlin təhlili göstərir ki, üz kəlləsinin müxtəlif formaları olan şəxslər üçün "yuxarı yelpik"ın bütün 10 göstəricinin əks tərəfi ölçüləri arasında statistik cəhətdən əhəmiyyətli fərqlər yoxdur. Nazion-infraorbital və nsion-zygomaksiller kimi ölçülərdə əhəmiyyətli və ya əhəmiyyətsiz statistik fərq qeyd edilmir.

Infraorbital və zigomaksillerin nöqtələri üz əzələlərin bağlanma nöqtəsidir, Buna görə də bu göstəricilər üçün ölçü fərqləri üz əzələlərin funksional asimmetriyası ilə əlaqədardır.

Üz kəlləsinin müxtəlif formalarında asimmetriyanı müəyyən etmək üçün qadın və kişi kəllələrində "Yan yelpikdə" ölçmələr aparılmışdır (cəd.4)

Cədvəl 4.

Müxtəlif formalı kişi və qadın kəllələrində “Yan yelpik”in ölçülərinin müqayisəsi.

№ п/п	Məsafə (mm-lə)	Tədqiq olunan tərəf	Kəllənin müxtəlif formalarında statik göstərici					
			Eyren	P	Mezen	P	Lepten	P
Qadın								
1	zm-infor	Sağ	24,27±0,6	0,04	26,00±0,5	0,32	25,51±0,4	-0,17
		Sol	24,23±0,6		25,68±0,5		25,68±0,5	
2	zm-ap.inf	Sağ	39,95±0}7	-0,28	41,93±0,7	-0,35	42,96±0,4	0,14
		Sol	40,23±0,6		42,28±0,7		42,82±0,5	
3	zm-da	Sağ	49,36±0,4	0,13	52,33±0,9	-0,01	52,18±0,9	-0,08
		Sol	49,23±0,7		52,34±1,0		52,36±0,9	
4	zm-min шир	Sağ	54,82±0,7	-0,04	57,63±0,9	0,29	56,96±0,8	-0,04
		Sol	54,8б±0,5		57,34±1,0		57,00±0,9	
kişi								
1	zm-infor	Sağ	29,32±0,69	-0,21	26,75±0,57	-0,01	27,79±0,79	-0,64
		Sol	29,41±0,78		26,76±0,68		28,43±0,62	
2	zm-ap.inf	Sağ	46,43±1,00	-0,19	44,47±0,57	0,73	44,68±0,65	-0,56
		Sol	46,62±1,01		43,74±0,63		45,24±0,86	
3	zm-da	Sağ	55,49±1,04	-0,22	54,44±0,77	-0,32	54,95±0,77	-1,23
		Sol	55,71±1Д3		54,76±0,72		56,48±0,78	
4	zm-min шир	Sağ	61,91±1,48	-0,30	60,32±0,99	-0,36	62,54±0,71	-0,33
		Sol	62,21±1,28		60,68±0,84		61,21±0,83	

Tədqiqatın nəticələri göstərmişdir ki, almacıq-əng nöqtəsindən alın-burun tikişinin bayır nöqtəsinə qədər olan məsafədə dəqiq şəkildə sağtərəfli asimmetriya (1,0); almacıq-əng nöqtəsindən dakriona qədər məsafədə dəqiq olan soltərəfli asimmetriya (-0.5) müəyyən edilir. Almacıq-əng nöqtəsindən armudu dəliyin bayır kənarı arasındakı məsafədə Almacıq-əng nöqtəsindən armudu dəliyin bayır kənarı arasındakı məsafədə praktiki olaraq asimmetriya müşahidə edilmir (0).

Alınan nəticələrin analizi göstərir ki, "Yan yelpikdə" qadın kəllələrində almacıq-əng nöqtəsi ilə burun-əng nöqtələri arasındakı məsafə istisna olmaqla həm sol, həm də sağ tərəfdə cüzi asimmetriya müşahidə edilir.

"Aşağı yelpik" göstəricilərinə əsasən üz kəlləsinin asimmetriyasını müəyyən etmək üçün, subspinale nöqtəsindən başlayan 10 cüt qeyri-standart ölçülər hesablanmışdır (cəd.5).

Cədvəl 5.

Müxtəlif formalı kişi və qadın kəllələrində "Aşağı yelpik"in ölçülərinin müqayisəsi.

№ п/п	Məsafə (mm-lə)	Tədqiq olunan tərəf	Kəllənin müxtəlif formalarında statik göstərici					
			Eyren	P	Mezen	P	Lepten	P
Qadın								
1	ss-ft	Sağ	78,24±0,7	-0,35	81,20±0,9	0,20	82,48±0,8	-0,04
		Sol	78,55±0,8		81,00±0,9		82,52±0,7	
2	ss-zm	Sağ	48,06±0,9	-0,37	50,03±0,7	-0,23	50,40±0,8	-0,43
		Sol	48,43±0,8		50,26±0,7		50,83±0,7	
3	ss-da	Sağ	44,38±0,5	-0,18	46,98±0,7	0,22	47,74±0,7	-0,22
		Sol	44,56±0,7		47,20±0,7		47,96±0,8	
4	ss-infor	Sağ	31,42±0,7	-0,01	32,08±0.5	-0,22	32,60±0,6	-0,70
		Sol	31,43±0,5		32,30±0,5		33,30±0,6	
5.	ss-ap.lat	Sağ	16,27±0,5	0	16,70±0,4	0,38	17,50±0,7	0,81
		Sol	16,27±0,5		16,32±0,4		16,69±0,4	
6.	ss-ap.inf	Sağ	8,64±0.5	-0,09	8,79±0,2	-3,47	8,47±0,4	-0,26
		Sol	8,73±0,4		12,26±0,4		8,73±0,4	
Kişi								
1	ss-ft	Sağ	85,39±0,96	-0,43	87,04±1,16	-0,25	85,59±0,89	0
		Sol	85,82±0,91		87,29±0,97		85,59±0,95	

2	ss-zm	Sağ	54,96±0,75	0,21	53Д8±0,63	0,50	53Д9±0,75	-0,67
		Sol	54,75±0,66		52,68±0,60		53,86±0,78	
3	ss-da	Sağ	48,97±0,84	0,72	50,01±0,68	-0,24	51,73±0,79	-0,29
		Sol	48,24±0,95		49,77±0,69		52,02±0,76	
4	ss-infor	Sağ	35,46±0,58	-0,43	35,28±0,38	-0,44	36,00±0,69	0,07
		Sol	35,89±0,61		35,72±0,55		35,93±0,76	
5.	ss-ap.lat	Sağ	18,06±0,33	-0,63	17,71±0,43	-0,06	18,96±0,41	0,15
		Sol	18,70±0,42		17,77±0,46		18,81±0,37	
6.	ss-ap.inf	Sağ	9,64±0,28	-0,08	9,54±0,27	0,07	9,74±0,36	-0,49
		Sol	9,72±0,29		9,47±0,30		9,93±0,37	

"Aşağı yelpik"ın göstəricilərinin analızi nəticəsində müəyyən edilmişdir ki, subspinal nöqtədən burun-əng nöqtəsinə qədər olan məsafədə əhəmiyyətli dərəcədə sağtərəfli asimmetriya (1,0), subspinal nöqtədən burunun minimal eni arasındakı məsafədə əhəmiyyətli dərəcədə soltərəfli asimmetriya (-0,7), orta dərəcəli asimmetriya (0,5) subspinal nöqtədən burun-alın tikişinin bayır nöqtəsi arasındakı məsafədə müşahidə edilirsə də, subspinal nöqtədən infarorbital nöqtə arasındakı məsafədə asimmetriya qeyd edilmir (0).

Əldə edilmiş məlumatlara əsasən, "Aşağı yelpik"də asimmetriyanın mövcudluğu və xüsusiyyətləri barədə aşağıdakı nəticələr alınmışdır:

Beləliklə, üz kəlləsində asimmetriyanın "Yelpik" üsulu ilə öyrənilməsi göstərir ki, üz kəlləinin müxtəlif hissələrində ("yuxarı", "aşağı", "bayır") asimmetriya müşahidə edilir.

Maliyyə mənbəyi : yoxdur.

Maraqların toqquşması : yoxdur.

Ədəbiyyat siyahısı

1. Ронь Г.И., Акмалова Г.М. Эстетическая стоматология и качество жизни пациентов // Проблемы стоматологии. 2010; (1): 28-30
2. Баиндурашвили А.А. Морфо-функциональные параметры лица, влияющие на его эстетическое восприятие: Автореф. дис… канд.мед.наук., Санкт-Петербург; 2011: 25
3. Николаева Е.Ю. Влияние асимметрии лицевого скелета на степень тяжести аномалий зубочелюстнои системы и ее ортодонтическая коррекция: Автореф. дис… канд. мед. наук. Тверь; 200: 21
4. Lee M., Chung D., Lee J., et al. Assessing soft-tissue characteristics of facial asymmetry with photographs // Am J Orthod Dentofacial Orthop., 2010; 138(1): 23-31
5. Hwang H., Yuan D, Jeong K., et al. Three-dimensional soft tissue analysis for the evaluation of facial asymmetry in normal occlusion individuals // Korean J Orthod., 2012;42(2): 56-63
6. Kim J., Lee S., Kim C., et al. Facial asymmetry: a case report of localized linear scleroderma patient with muscular strain and spasm //

Maxillofac Plast Reconstr Surg., 2015; 16(37): 29
7. Nur R., Çakan D., Arun T. Evaluation of facial hard and soft tissue asymmetry using cone-beam computed tomography // Am J Orthod Dentofacial Orthop., 2016; 149(2): 225-237
8. Zhang Y., Che B., Ni Y. et al. Three-dimensional condylar positions and forms associated with different anteroposterior skeletal patterns and facial asymmetry in Chinese adolescents // Acta Odontol Scand., 2013; 71(5): 1174-1180
9. Байбаков С.Е., Гайворонский И.В. Индивидуальная анатомическая изменчивость: Историко-методологические аспекты // Вестник экспериментальной и клинической хирургии. 2008; (1): .65-72
10. Алексеев В.П. Остеометрия. Методика антропологических исследований. М.: Наука, 249.
11. Гайворонский И.В. Дубовик Е.И., Крайник И.В. Морфометрические показатели асимметрии лицевого черепа у взрослого человека // Морфология, 2009; (2) 74-79

RESUME

The constitutional typological features of body mass index as the most important characteristic of nutritional status

Alyeva S.A., Shadlinski V.B.

Department of Human Anatomy and Medical Terminology. Azerbaijan Medical University. Baku Azerbaijan

Aim. The task of the study was to study the degree of effectiveness of craniometric determination of asymmetry in the face of the method of "Fan".

Material and methods. The study was conducted on 120 human skulls of various periods of intestinal development selected from the craniolic collection of the Museum of Human Anatomy of the Azerbaijan Medical University.

The asymmetry in the face of the Castle has been studied by the method of "Fan". According to this method, the face clamp is divided upward, down and side by "jaws". Figures obtained as a result of the research were statistically analyzed and analyzed.

Results. The distribution of the study material showed that almost half of the material studied was medium-sized and slightly smaller, with long-faced skulls. The wide face is set at least in the skulls. Studying the skulls by the "Fan" method showed that the largest degree of asymmetry of the skull is characteristic for the distance from the nasion point to the fronto-temporal point.

There are no statistically significant differences between the dimensions of all 10 indicators of the "Top Range". In the "side-by-side" precision asymmetry (1.0) at the distance from the point-to-point point to the suture of the nose; The left-round asymmetry (-0.5), which is exactly the distance from the point-to-point to dacrima, is defined. As a result of the analysis of the "lower range", it was determined that substantially the right asymmetry (1.0) from the subspinal point to the nasal passage was significantly significant in the distance between the subspinal point and the minimum width of the nozzle (-0.7) Although asymmetry (0.5) is observed at a distance between the subspinal point and the nose-forehead suture, the asymmetry is not indicated at the distance between the subspinal point and the infarorbital point (0).

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
İcmal Məqalə
Səh. 35-40

Postnatal ontogenezdə sidik kisəsi vəzi və limfoid törəmələrinin morfoloji xüsusiyyətləri haqqında

Hüseynova G.A.[1]

[1]İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün :** AZ1022, Bakı, Y. Səfərov küç. 8, mən. 29, E mail: gulqiz65@mail.ru,

Açar sözlər : dəmir, limfa quruluşu, morfologiya, sidik kisəsi.

Giriş. Borulu və boşluqlu orqanların divar elementlərinə orqandaxili sinir və damarlarla yanaşı kiçik vəzilər və limfoid törəmələr aiddir [11,13-14]. Borulu orqanların divar quruluşunun normada əldə etdiyi xüsusiyyətlər haqqında məlumat onların patomorfogenezinin qanunauyğunluqları haqqında fikir sürməyə imkan verir [14-15]. Bu tip orqanların divarında yerləşən kiçik vəzilərin və limfoid törəmələrinin morfoloji xüsusiyyətlərini əks etdirən, müasir nəzəri immunomorfologiya və morfoloji ekzokrinologiya kimi sahələrin tələblərinə cavab verə bilən nəticələr, bu orqanların müxtəlif xəstəliklərinin müalicə və profilaktikasında böyük əhəmiyyətə malikdir.

Borulu orqanların kiçik vəzilərinin və limfoid törəmələrinin tədqiqində makromikroskopik metod (Sinelnikov və Hellman metodları) ən məhsuldar metod hesab edilir. Histoloji metodlarla tədqiq isə qeyd edilən törəmələrin morfometrik ölçü göstəriciləri ilə yanaşı, onların mikrotopoqrafik, mikrosintopik qarşılıqlı münasibətlərini müəyyənləşdirməyə imkan verir [1-7,12].

Postnatal ontogenezdə müxtəlif borulu orqanlarının vəzi və limfoid törəmələrinə aid tədqiqat işləri aparılmış və onların morfoloji qanunauyğunluqları müəyyənləşdirilmişdir [1,3-4,6-7,9-10,12,16-17]. Sidik sisteminin borulu və boşluqlu orqanlarından olan sidik kisəsi divarının vəzi və limfoid törəmələrinə həsr edilmiş bir sıra tədqiqat işlərimizin nəticələri isə, bu orqanın özünəməxsus morfoloji xüsusiyyətləri haqqında fikir yürütməyə imkan verir [5,18,19]. Məlumdur ki, sidik kisəsi vəzilərinin axacaqları yad cisimciklərin (antigen və s.) sidik kisəsi boşluğundan onun divarının dərinliklərinə və orqanizmin daxili mühitinə keçməsində "giriş qapısı" funksiyasını yerinə yetirir [11,14,15]. Bu isə sekresiyanın heterogenlik, periodiklik və involyutivlikl xüsusiyyətləri ilə sıx bağlıdır.

Əldə etdiyimiz nəticələrə görə sidik kisəsi vəzilərinə borulu orqanaların divar elementlərinə xas olan quruluş, yerləşmə qanunauyğunluğu xasdır. İlk növbədə qeyd etmək lazımdır ki, sidik kisəsi vəziləri birdən altıya qədər şöbədən ibarət və histokimyəvi olaraq aktiv sekresiya qabiliyyətinə malik mürəkkəb alveollu vəzilərə aiddir. Vəzilərin alveol şöbələri postnatal ontogenezin tədqiq edilən bütün yaş dövrlərində, əsasən sidik kisəsinin selikli qişasında aşkarlanır. Hər alveoldan başlanan ara axacaqlar bir-biri ilə birləşərək alveol şöbəyə məxsus axacaqları, sonuncular isə öz aralarında birləşərək ümumi

vəzi axacağını formalaşdırır. Vəzi axacağı gedişi boyunca və xüsusən yaşdan asılı olaraq S-əbənzər əyriliklər, ampulşəkilli genişliklər əmələ gətirə bilir; bunun nəticəsi olaraq isə sekretin axacaq boşluğunda qalma müddəti artır, reabsorbsiyası, qatılaşması üçün əlverişli şərait yaranır [5,21]. Sidik kisəsi vəziləri müxtəlif – tək və qrup, bərabər və qeyri-bərabər paylanmış şəkildə yerləşə bilir. Postnatal ontogenezin son dövrlərində və xüsusən orqanın yuxarı hissələrində vəzisiz sahələr aşkarlanır. Bu sahələr ya irsi proqramlaşdırılma, ya da vəzilərin müxtəlif xəstəliklərin nəticəsində məruz qaldığı yerli atrofiyası və ya involyusiyası ilə əlaqədar yarana bilər [21].

Postnatal ontogenezin bütün yaş dövrlərində sidik kisəsi divar elementlərindən olan limfoid törəmələr – limfoid düyüncüklər və diffuz limfoid toxuma ilə təmsil olunur. Limfoid törəmələr də yerləşmə, fərdi, yaş, cinsi, qanunauyğunluqları ilə səciyyələnir. Vəzilərlə sıx mikrotopoqrafik münasibətdə olan limfoid törəmələr mikroorqanizmlərin və yad patogen törədicilərin axacaq vasitəsilə orqanın divar dərinliklərinə və sonda daxili mühitə nifuz etməsinin qarşısını alır. Kiçik vəzilərin axacaqları ətrafında və alveol yaxınlığında qlandulositləri əhatə edən limfoid törəmələr və diffuz limfoid toxuma hüceyrələri immun nəzarət, "gözətçi məntəqə" fəaliyyətini yerinə yetirir. Diffuz limfoid toxuma və limfoid düyüncüklər immun sistemin digər periferik orqanları ilə eynitipli hüceyrə tərkibinə malikdir [14,15]. Limfoid toxumanın tərkibində kiçik və orta limfositlər, retikulyar hüceyrələr, limfoblastlar, makrofaqlar, plazmatik hüceyrələr və s. müəyyən edilir. Limfoid düyüncüklərində çoxalma mərkəzinin aşkarlanmır. Bu isə orqanizmin daxili mühitinə aid olan sidiyin zəif nisbi antigen aktivliyi ilə izah edilir. Yalnız qocalıq və ahıl yaşı dövrlərində və xüsusən də sidik kisəsinin yuxarı hissəsində limfoid düyüncüklər aşkarlanmır və ya epizodik şəkildə qeyd edilir.

Sidik kisəsi divar elementlərindən olan vəzi və limfoid törəmələrə xas digər qanunauyğunluq – meyillilik əlamətidir. Orqan divarında yaşdan asılı olmayaraq vəzi və limfoid törəmələrin sayında onun aşağı hissəsinə doğru istiqamətdə artım aşkarlanır [5,18,21] – postnatal ontogenezin eyni bir yaş dövründə orqanın aşağı hissəsində yuxarı hissəsinə nisbətən vəzilərin sayı 1,4-1,8 dəfə artır. Bu xüsusiyyət digər ölçü göstəricilərinə də aiddir. Bu istiqamətdə artım təsadüfi olmayıb, bir tərəfdən sidik kisəsi divarında vəzi ilə limfoid toxumanın mikrotopoqrafik assosiasiyası ilə, digər tərəfdən isə qalxan urogen infeksiyaların potensial imkanları ilə əlaqəlidir [15]. Qeyd edilən meyillilik xüsusiyyəti digər borulu orqanların divar elementlərinin tədqiqi zamanı da əldə edilmiş qanunauyğunluqları təsdiqləyir [1,3-4,6-7,9-10,12,16-17]. Bu xüsusiyyət sidik kisəsinin aşağı hissəsində sfinkterlərin – həm sidik kanalının daxili, həm də sağ və sol sidik axarlarının sfinkterlərinin yerləşməsi ilə də bağlıdır. Boşluqlu orqan sfinkterləri avtonom xüsusiyyətlərə malik olub, möhtəviyyatın xaric edilməsində, orqanın fizioloji istiqamətdə boşalmasında, selikli qişa ilə sıx təmas zamanı antireflyuks aktivliyinin artmasında iştirak edir [2,8,14]. Bu isə onların divar elementlərinin dəyişiklikləri – əzələ qişasının dairəvi qatının qalınlaşması, orqanın mənfəzinin daralması, orqandaxili sinir və damarların sıxlığının, mikrosirkulyasiyanı artıması, selikli qişanın relyefində baş verən müxtəlif dəyişikliklərlə yanaşı, vəzi və limfoid törəmələrin artım göstəriciləri ilə səciyyələnir [2,8]. Sidik nə qədər antigen xüsusiyyətə malik olsa belə, tədqiq

edilən bütün yaş dövrlərində sidik kisəsinin selikli qişasında (sfinkter olan sahələrdə) "vəzi halqası" toplantısı və onların ərtafında limfoid düyüncüklər aşkarlanır [14]. Bu isə sidik kisəsi sfinkterləri sahəsində sfinkterətrafı sahəyə nisbətən vəzi və limfoid törəmələrin say və morfometrik göstəricilərinin artıqlığı ilə xarakterizə olunan morfoloji qanunauygunluqdur. Belə ki, sidik kanalının daxili sfinkteri sahəsində sfinkterətrafı zonaya nisbətən vəzilərin alveol şöbələrinin qalınlığında 1,1-1,6, sahəsində 1,1-1,3, alveollarının sayında 1,2-1,5, axacaq mənfəzinin sahəsində isə 1,1-1,5 dəfə artım qeyd edilir. Müvafiq dəyişikliklər sidik axarlarının sfinkterləri sahəsində də aşkarlanır. Eyni quruluş prinsipinə malik sağ və sol sidik axarları sfinkterləri sahəsində nəzərə çarpacaq fərq müşahidə edilmir.

Postnatal ontogenezdə sidik kisəsi vəzi və limfoid törəmələrinə xas digər qanunauyğunluq yaş xüsusiyyətlərinə aid olub, involyusiya prosesini əks etdirir. Yenidoğulmuşda sidik kisəsi artıq yaxşı inkişaf etmiş vəz aparatına və limfoid törəmələrə malik olsa da, artıq I yetkinlik yaşı dövründə vəzilər, erkən uşaqlıq yaşı dövründə isə limfoid törəmələr maksimal inkişaf göstəriciləri ilə xarakterizə olunur. Bu isə nəzərdə tutulan yaş dövrlərində həyat şəraitinə uyğunlaşma tələbləri ilə izah edilir [12,14,18,21]. I yetkinlik yaşı dövründə alveollarda qlandulositlərin sayında artım, alveol boşluğunda genişlənmə, boşluğun sekretor kütlə ilə tutulması onların maksimal sekretor aktivliyini, axacağın 2,4 dəfə genişlənməsi isə onun ötürücülük fəaliyyətinin ən optimal şərtlər çərçivəsində yerinə yetirilməsini göstərir. Sidik kisəsi vəziləri ahıl yaşı dövründən başlanan yaş involyusiyasına məruz qalır. Belə ki, I yetkinlik yaşı dövrü ilə müqayisədə qocalıq yaşı dövründə sidik kisəsi vəzilərinin alveollarının sayında 1,7 dəfə ($p < 0,05$) azalma baş verir. Bu qlandulositlərin sayında, alveol və onun boşluğunun sahəsinin də azalmasında, stromanın faiz tərkibinin isə artmasında öz əksini tapır – I yetkinlik yaşı dövründə kəsiyə düşən alveol şöbələrinin stromasının faiz tərkibi orta hesabla 14,7% təşkil edirsə, qocalıq yaşı dövründə bu göstərici artaraq 19,6 %-ə bərabər olur.

Sidik kisəsi divarında vəzilərə xas bu morfoloji xüsusiyyət limfoid törəmələrə də aiddir. Belə ki, limfoid düyüncüklərin və diffuz limfoid toxumanın hüceyrə sayının erkən uşaqlıq yaşı dövründə yenidoğulmuşlara nisbətən maksimal artımı immun sistemin periferik orqanlarının morfogenezinin ümumi qanunauyğunluqlarından biridir [13]. Bu qanunauyğunluğa uyğun olaraq erkən uşaqlıq yaşı dövründən sonra sidik kisəsinin limfoid törəmələrinin özünəməxsus involyusiya prosesi başlanır – qocalıq yaşı dövründə orqanın yuxarı və orta hissələrində limfoid düyüncüklər qeyd edilmir; bəzən təsadüfi halda aşkarlanır [21].Qocalıq yaşı dövründə erkən uşaqlıq yaşı dövrü ilə müqayisədə, limfopoetik proseslərin zəifləməsi ilə əlaqədar olaraq, immun sistemin aktiv iştirakçılarından olan kiçik limfositlərin faizi 1,2, böyük limfositlərinki isə 2,0 dəfə azalır, degenerativ hüceyrələrin faiz tərki 9,6 dəfə artır. Bu isə öz növbəsində postnatal ontogenezin son yaş dövrlərində limfoid toxumadakı destuktiv proseslərin aktivləşməsindən xəbər verir.

Postnatal ontogenezdə sidik kisəsi vəzi və limfoid törəmələrinin say və morfometrik göstəriciləri ilə yanaşı, quruluşları da involyutiv xüsusiyyətlərə malik olur. Vəzilərin belə involyutiv xüsusiyyətlərindən biri qocalıq yaşı dövrünə doğru axacaq aparatının əldə etdiyi dəyişikliklərdir; bu yaş dövründə axacağı

çıxıntılar, ampulşəkilli genişliklər və S-əbənzər əyriliklər əmələ gətirən vəzilərin sayı da artır. Qocalıq yaşı dövründə axacağı ampulşəkilli genişlik əmələ gətirən vəzilər 45,9 % təşkil edir ki, bu da I yetkinlik yaş dövrü ilə müqayisədə 1,5 dəfə artıqdır. Qocalıq yaşı dövründə faiz etibarı ilə çoxluq təşkil edən bu genişliklər vəzilərin involyutiv hiposekresiyası fonunda sekretin toplanması funksiyasına xidmət etməklə kompensator fəaliyyət yerinə yetirir [14,21]. Bu yaş dövründə forma dəyişikliyi limfoid törəmələr üçün də xasdır – sidik kisəsinin yalnız aşağı hissəsində forma dəyişkənliklərinə uğramış və üçbucaqşəkilli limfoid düyüncüklər diqqəti cəlb edir.

Sidik kisəsi divar elementlərindən vəzilərə aid digər morfoloji qanunauyğunluq cinsi xüsusiyyətlərdə əks olunur. Nəzərdə tutulan bu xüsusiyyət yenidoğulmuş, erkən uşaqlıq və qocalıq yaşı dövrlərində qeyd edilmir, inkişafın reproduktiv mərhələlərində (yeniyetmə, gənclik və I yetkinlik dövrlərində) nəzərə çarpır. Belə ki, vəzi alveollarının sayı yeniyetmə yaşı dövründə, qızlarda öğlanlarla müqayisədə 1,3-1,5 dəfə, I yetkinlik yaşı dövründə qadınlarda kişilərə nisbətən 1,4-1,6 dəfə artım əldə edir. Bu isə reproduktiv inkişaf dövründə hormonal effekt və esterogenlərin trofiki təsirləri ilə izah edilir [21,22].

Sidik kisəsi vəzi və limfoid törəmələrinin morfogenezinin növbəti qanunauyğunluğu digər borulu orqanlarda olduğu kimi [4,6,7,9] fərdi dəyişkənlik ilə bağlıdır. Postnatal ontogenezin uşaq yaşı dövründə morfometrik göstəricilərin fərdi dəyişkənliyinin minimal və maksimal hüdudlarının kənaraçıxmaları yetkinlik yaşı dövrü ilə müqayisədə az olur. Əgər yenidoğulmuşda alveollarının sayının minimal və maksimal qiymətləri 7-15 arasında dəyişirsə, qocalıq yaşı dövründə bu göstərici 7-25-ə bərabərdir. Fərdi dəyişkənliyinin minimal və maksimal hüdud qiymətlərinin ən böyük kənaraçıxmaları sidik kisəsi üçün bir tərəfdən müxtəlif faktorların təsirindən – keçirilən xəstəliklərdən, dərman maddələrinin qəbulundan, zərərli vərdişlərdən və s. asılıdırsa, digər tərəfdən sağlam adamlarda belə, sidiyin tərkibinin keyfiyyət göstəricilərindən və parçalanma prosesindən asılıdır.

Maliyyə mənbəyi : yoxdur.
Maraqların toqquşması : yoxdur.

Ədəbiyyat siyahısı

1. Аллахвердиев М. К. Основные аспекты структурно-функциональных характеристик железистого и лимфоидного аппаратов внепеченочных желчевыводящих путей человека // Азмеджурнал. 2006;1: 42-49
2. Баженов Д.В., Блинова Н.В. Женский мочеиспускательный канал и его сфинктерный аппарат. Тверь: Триада.2009.80 с.
3. Гусейнов Б. М. Количественные показатели клеточного состава лимфоидного аппарата трахеи и главных бронхов людей разного возраста // Морфология. 2008;4:64-65
4. Гусейнов Б. М. Некоторые топографо-анатомические особенности и размерно-количественные показатели лимфоидных образований трахеи и главных бронхов человека в возрастном аспекте // Морфологические ведомости.2008;1(2):41-43
5. Гусейнова Г.А., Никитюк Д.Б. О возрастных и регионарных особенностях количества желез мочевого пузыря человека // Системный анализ и управление в биомедицинских системах. Воронеж.2010;9(1):18-20
6. Джаббарова Н.Р. Морфологическая характеристика желез женского мочеиспускательного канала в постнатальном

онтогенезе: Автореф. дисс. … канд. мед. наук. Баку.2008.21 с.
7. Джафарова У.Т. Структурная характеристика и закономерности морфогенеза желез и их взаимоотношения с лимфоидными образованиями пищевода человека в норме и при частичной атрезии этого органа : Автореф. дисс. …канд. мед. наук. Баку.2011.22 с.
8. Колесников Л.Л. Сфинктерология. Москва: Гэотар-мед. 2008.452 с.
9. Мовсумов Н.Т. Морфогенез желез гортани человека в норме и в эксперименте при некоторах бальнеологических воздействиях: Автореф. дисс. … докт. мед. наук. - Баку. 2004.41 с.
10. Никитюк Д.Б. Структурно-функциональная характеристика и морфогенез железистого аппарата толстой кишки взрослого человека: Автореф. дисс. … докт. мед. наук. Москва. 1994.34 с..
11. Никитюк Д.Б., Колесников Л.Л., Шадлинский В.Б., Баженов Д.Б., Алексеева Н.Т., Клочкова С.В. Многоклеточные железы стенок пищеварительной и дыхательной систем (вопросы функциональной морфологии). Тверь:Научная книга. 2017. 278 с.
12. Никитюк Д.Б., Шадлинская С.В.. Изменчивость лимфоидных структур преддверия влагалища в разные фазы овариально-менструального цикла // Медицинский вестник Башкортостана.2018;13(2):47-51
13. Сапин М.Р. Никитюк Д.Б. Иммунная система, стресс и иммунодефицит. Москва: Джангар.2000.184 с.
14. Сапин М.Р., Никитюк Д.Б., Чава С.В. Функциональная анатомия полых органов Элиста: Джангар. 2013. 88 с.
15. Сапин М.Р., Николенко В.Н., Чава С.В., Алексеева Н.Т., Никитюк Д.Б. Вопросы классификации малых желез стенок полых внутренних органов // Журнал анатомия и гистопатология. 2013; 2(1):9-17
16. Шадлинский В.Б., Мовсумов Н.Т. Железисто-лимфоидные взаимоотношения в стенках гортани у людей пожилого и старческого возраста // Морфология. 2002;121(2-3):174
17. Шадлинский В.Б., Мовсумов Н.Т., Гиясбейли И.А. Морфологические особенности лимфоидных образований сфинктерного аппарата женской уретры // Sağlamlıq. 2005; 1:46-47
18. Шадлинский В.Б., Гусейнова Г.А. Морфологические особенности лимфоидных узелков мочевого пузыря в постнатальном онтогенезе. Витебск.2014.С. 215-218
19. Шадлинский В.Б., Гусейнова Г.А. Морфологические изменения лимфоидных структур мочевого пузыря в эксперименте при бальнеопроцедурах. Актуальные вопросы морфологии. Смоленск.2014.С.92-94
20. Middendorp S., Nieuwenhuis E. NKT cells in mucosal immunity. Journal Mucosal Immunology. 2009; 5 (2):393-402
21. Sadlinski V.B., Hüseynova G.A. Sidik kisəsi vəziləri və limfoid törəmələrinin morfoloji xüsusiyyətləri. Bakı: Elm. 2013. 186 s.
22. Shadlinski V.B., Huseynova G.A. The genital structural features of the urinary bladder gland apparatus of people in different age / Archiv Euromedica. 2011;150-153

RESUME

About the morphological peculiarities of the glands and lymphoid structures of the urinary bladder in the postnatal ontogenesis

Huseynova G.A.

Department of Human Anatomy and Medical Terminology. Azerbaijan Medical University. Baku. Azerbaijan

In a postnatal ontogenesis of glands and lymphoid structures of a urinary bladder are characterized with the regionar localization, age, specific and genital features. At all stages of a postnatal ontogenesis the quantity and density of glands and lymphoid structures in the lover part of a urinary bladder are more, than in upper and the middle parts. The quantity and morphometric indexes of glands and lymphoid structures in a sphincter more those near a sphincter. In a postnatal ontogenesis the genital peculiarities of glands and lymphoid structures of an organ discovered at teenage, youthful and I mature ages. To these structures is characteristic also the age features. At the earliest stage of a postnatal ontogenesis, i.e. at the newborn the glands of a urinary bladder have well formalizated. The greatest development it is noted in I mature age. After those periods – at elderly and senile ages ares noted an involution of glands. Lymphoid structures as much as possible develop at early childs age. After this age there is a morphological regress of a lymphoid tissue. Glands and lymphoid structures of a urinary bladder of the man are characterized by individualy features. Their broad individual variability at mature, elderly and senile ages is established.

Key words: gland, lymphoid structures, morphology, human urinary bladder

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
Orijinal məqalə
Səh. 41-48

Postinfarkt stenokardiyalı xəstələrdə optimallaşdırılmış müalicədən sonra immun-iltihab markerləri və hemorealoji göstəricilərin dinamikası və korrelayasiya əlaqələri

Pənahova N.Ə.[1]

[1]Kliniki farmakologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün :** AZ 1022 Bakı, S.Vurgun küç. 167, E-mail: doktorpanahova@mail.ru.

Məqsəd . Postinfarkt stenokardiyalı xəstələrdə optimallaşdırılmış müalicədən əvvəl və sonra immun iltihab markerlərinin dinamikasını və korrelyasiya əlaqəsini müəyyən etməkdir

Materal və metodlar. Tədqiqata keçirilmiş miokard infarktından sonrakı 3-6 ay müddətində (yarımkəskin mərhələ) yenidən stenokardiyası olan 47 xəstə daxil edilmişdir . Kontrol qrupunu isə 20 praktiki saglam insan təşkil etmişdir .Xəstələrin orta yaş qrupu 59,9 ±1,1 olmaqla 41-i kişi , (87,2 %), 6-si (12,8 %) qadın olmuşdur .Xəstələrdə immun iltihab markerləri (Tnf-alfa, IL-6, IL-8,CRP), qanın reoloji göstəriciləri (fibrinogen ,protrombin müddəti ,INR) tədqiq edilmişdir

Nəticə -Aparılmış tədqiqatın nəticələrinə əsasən postinfarkt stenokardiyalı (yarimkəskin mərhələ) xəstələrdə xəstəliyin destabiilizasiyası praktiki saglam insanlarla və ürəyin xroniki işemiya xəstəliyi (ÜXİX) ilə müqayisədə sitokin sisteminin (TNF-alfa,IL-6,IL-8) hipersekresyası və kəskin faza mediatorlarının (C-reaktiv protein ,fibrinogen) statistik dürüst artımı ilə xarakterizə olunmuşdur . Koreyyativ təhlil zamanı xəstələrdə (n=47) TNF –alfa və IL-6 arasında r=0,912 ; p<0,01 , CRP və IL-8 arasında r=0,466; p<0,01 , TNF-alfa və fibrinogen arasında r=0566,;p<0,01 , IL-8 və CRP arasında r=0,466 ;p<0,01 , IL-6 və fibrinogen arasında r=0,605; p<0,01 şəklində gözlənilən sıx qarşılıqlı əlaqə müəyyənləşmişdir

Açar sözlər : Post-infarkt anginası, immun inflamasiya reaksiyaları, sitokin sistemi, ağır faza mediatorları.

Giriş. Aparılan kliniki çalışmalar iltihabın aterosklerozun həm başlanmasında həm də proqressivləşməsində önəmli rol oynadığını, həmçinin stabil bir aterosklerotik qranulomanın qeyri stabil bir piləyə çevrilməsində də mühüm rolunu göstərmişlər. [1]. İltihab markerlərinin miqdarı sabit stenokardiya xəstələri ilə müqayisədə qeyri-sabit stenokardiya xəstələrində dəqiq yüksəkdir və əlverişsiz proqnostik əhəmiyyət kəsb edir [2, 3, 4]. Ürək-damar xəstəliklərinin patogenezinin formalaşmasında böyük rol sitokinlər, əsasən də interleykinlər: interleykin-1 (İL-1), interleykin-6 (İL-6), interleykin-8 (İL-8), şiş nekrozu amili alfa (ŞNA-α) kimi proiltihab və iltihab əleyhinə sitokinlər sırasına aid olan sitokinlərin balansının pozulması oynayır [5] .Sitokinlər aterosklerozun ÜİX və onun formalarının agirlaşmasının bütün mərhələlərində iştirak edirlər və iltihab sitokinləri (ŞNA-α, İL-1, İL-6) aterosklerotik risk, kəskin koronar hadisələrin inkişaf riski markerləridir Miokardın işemiyası kifayət qədər tez aşkar edilsə də, gələcək hadisələr riskini yüksək həssaslıq və

spesifikliklə müəyyən edə bilən biomarkerlərin sayı kifayət etmir .Tək və çoxsaylı risk amilləri ürək damar (ÜD) riskini ekspotensial sürətdə [6]. Xolesterinin səviyyəsi normal və normadan aşağı olan xəstələr arasında miokard infarktından sonra yenidən stenokardiyanın olması bu xəstələrdə immun və iltihabi proseslərin rolunu, həmçinin qanın realoji vəziyyətini daha dərindən öyrənməyə əsas verir. Iltihab markerleri üzərində təsiri haqqında aparılan çalışmalarda əldə edilən nəticələrə əsasən profilaktik antiaqreqasiya dozasında istifadə edilen aspirinin iltihabəleyhinə təsirinin olmadığını ortaya qoymuşdur [7, 8]. .

Son məlumatlara görə ÜİX-in kəskin koronar sindrom kimi təhlükəli klinik təzahürlərinin əksəriyyətinin aterosklerotik piləyin əmələ gəlməsi, onun dağılması və son nəticədə miokardın işemiyası və potensial nekrozuna gətirib çıxaran iltihabi proseslərinin nəticəsidir [9,10]. ÜİX-nin proqressivləşməsinin aydınlaşdırılmasına yönəlmiş bir çox çalışmalarda bu xəstələrin təxmini yarısında xəstəliyin klassik risq faktorları ilə izah edilə bilməməsi , bütün qoruyucu tədbirlərə və ənənəvi müalicə üsullarının tətbiqinə baxmayaraq xəstəliyin destabilləşməsinin hələ də problemli sahə kimi qalmagı, həllini gözləyən aktual məsələlərdən biridir. Buna görə də burada fərqli mexanizmlər , yeni risq faktorlarının araşdırılması və yeni müalicə yanaşmaları nəzərdən qaçmamalıdır.

Material ve metodlar . Tədqiqata keçirilmiş miokard infarktından sonrakı 3-6 ay müddətində (yarimkəskin mərhələ) yenidən stenokardiyasi olan 47 xəstə daxil edilmişdir . Kontrol qrupunu isə 15 praktiki saglam insan təşkil etmişdir . Xəstələrin orta yaş qrupu 59,9 +1,1 olmaqla 41-i kişi (87,2 %), 6-sı (12,8 %) qadın olmuşdur . ÜIX diaqnozu klinik instrumental məlumatlar əsasında qoyulmuşdur . Anginoz sindromun tipikliyi sakit vəziyyətdə davam etməsi, sutkaliq monitorinq və velorqometriya yüklənmə zamanı EKQ dəyişikliyin spesifikliyinə diqqət yetirilmiş , exokardioqrafiya məlumatları qeydə alınmışdır. Həmçinin EKQ-də ST seqmentinin depresiyasi, (0,1mV-dən artiq) və\və ya Ekq də yeni Q dişcikləri yaranmadan iki və ya daha çox aparmada T-dişinin inversiyası şəklində ötücü dəyişikliklərlə birlikdə tutmaların sayının çoxalması olmuşdur . Xəstələr iki yarimqrupa ayrılmışdır. Birinci yarımqrupa (n=20) xəstəliyin agırlıq dərəcəsinə uygun olaraq yalnız baza terapiya (antiaqreqantar , b – adrenoblokatorlar, nitratar , AÇF-ingibitorları , -dihidropiridin qrupu Ca–antaqonistləri ilə) müalicə aparılmışdır . Ikinci qrupa isə (n=27) klassik müalicəyə yanaşı olaraq 2 ay immunomodulyator və iltihabeleyhine preparatlar (Selverin 100mg - inyeksiya və Meloksikam 15 mg-2ay) verilmişdir. Xəstələrdə müşahidə olunan yanaşı xəstəliklərdən ən çox rast gəlinən hipertoniya xəstəliyi və 2-ci tip şəkərli diabet (kompensasiya mərhələsi) olmuşdur. Xaric edilmə kriteriyaları aspirin istisna olmaqla, digər iltihab əleyhinə və immunosupressiv preparatlarla müalicə alan ; miokardit, ürək çatışmazlığı (III və IV funksional siniflər); böyrək və qaraciyər çatışmazlığı;, ciddi – nəzarətedilə bilməyən arterial hipertenziya, pulmonar hipertenziya (təxmini 35 mm Hg yuxari olan), son 6 ay ərzində istənilən iltihab xəstəliyi anamnezi olmuşdur.

Məlumatların statistik işlənməsi Mikrosoft Excel 7,0 və Statistika for Windows 6,0 proqramlardan istifadə etməklə həyata keçirilmişdir. Məlumatlar M+m şəklində təqdim edilmişdir. Miqdar kəmiyyətlərinin korellyativ


təhlili Pirson korrelyasiya əmsalının hesablanması ilə aparılmışdır . P<0,05 səviyyəsində fərqlər düzgün hesab edilmişdir

Nəticələr. TNF –alfa səviyyəsi 1-ci qrupda (n=20) 11,0 +2,0 olmaqa kontrol qrupdan p<0,001 şəklində fərqlənmişdir (kontrol qrupda 1,6+0,3) . 2 -ci yarımqrupda (n=27) isə 13,3 +2,2 olmaqa kontrol qrupdan p<0,001 şəklində fərqlənmişdir

Şəkil 1.

1-ci və 2 ci yarımqrupda olan xəstələrdə TNF-alfa göstəricilərin


səviyyəsinin kontrol qrupla müqayisəsi



Göründüyü kimi TNF-alfa səviyyəsi həm 1-ci həm də 2-ci yarımqrupda kontrol qrupla müqayisədə yüksək olmuşdur (şəkil 1) .

Şəkil 2 .


1-ci və 2 -ci yarımqrupda olan xəstələrdə IL-6 nın səviyyəsinin kontrol qrupla müqayisəsi



IL-6 səviyyəsi də həm 1-ci həm də 2-ci yarımqrupda kontrol qrupla müqayisədə yüksək olmuşdur . 1-ci və 2-ci yarımqrupda müvafiq olaraq 10,0 +1,9 və 11,3 +1,8 olmaqa kontrol qrupdan p<0,001 şəklində fərqlənmişdir (Kontrol qrupda 1,5+0,3).

Şəkil 3.

1 ci və 2 ci yarımqrupda olan xəstələrdə fibrinogen səviyyəsinin kontrol qrupla müqayisəsi



Diaqramlardan və şəkillərdən də göründüyü kimi xəstələrdə immun iltihab markerleri (Tnf-

alfa, IL-6, IL-8) və bəzi hemorealoji göstəricilərin (fibrinogenin) konsentrasiyasının orta göstəricisi kontrol qrupu olan şərti saglam insanlarla müqayisədə statistik dəqiq yüksək olmuşdur (p<0,01) (Cədvəl 1).

Cədvəl 1.
Müayinə olunan xəstələrdə müalicədən əvvəl və sonra sitokinlərin dinamikası

Göstəricilər	1-ci qrup (n=20)		2-ci qrup (n=27)		Kontrol qrup (n=15)
	Müalicədən Əvvəl	Müalicədən Sonra	Müalicədən Əvvəl	Müalicədən Sonra	
TNF-alfa pq/ml	11±2,0***	7,5±1,4***	13,3±2,2***	6,3±1,18**^^	1,6±0,3
Il-6 pq/ml	10,0±1,9***	7,4±1,5**	11,3±1,8***	5,4±0,8**^^	1,5±0,3
IL-8 pq/ml	4,8±0,8***	3,5±0,6**	5,9±0,9***	3,1±0,4**^^	1,1±0,2
CRP(mg/l)	14,7±1,9**	9,5±0,9*^	14,2±0,6***	8,4±0,7^^^	6,7±0,5


Qeyd :Kontrola görə*- p<0,05, **p<0,01 , ***p<0,001)

Müqayisə qrupu ilə #- p<0,05 ## p<0,01 ### p<0,001


Eyni qrupda mualicədən əvvəl ^- p<0,05, ^^- p<0,01, ^^^ p<0,001

Cədvəldən göründüyü (cədvəl 1) kimi müalicədən əvvəl iltihab markerlərinin səviyyəsində iki yarımqrup arasında statistik fərq olmamışdır . Müalicədən əvvəl 1-ci qrupda TNF-alfa 11,0+2,0, sonra isə 7,5 +1,4 :p=0,051 , 2-ci qrupda 13,3 +2,2 , sonra isə 6,3+0,3: p<0,001 olmuşdur. IL-6 1-ci qrupda müalicədən əvvəl 10,0+1,9 sonra 7,4+1,5 p =0,104 , ikinci qrupda isə 11,3 +1,8 sonra isə 5,4+0,8; p <0,01 olmuşdur . İL-8 1-ci qrupda müalicədən əvvəl 4,8+1,8 müalicədən sonra 7,1 +1,2; p=0,122 ; 2-ci qrupda müalicədən əvvəl 10,4+ 0,8 ,sonra isə 3,5 +0,6 ; p<0,01 olmuşdur . CRP 1-ci qrupda müalicədən əvvəl 14,7+1,9 sonra isə 9,5+0,9; p<0,05 , 2ci qrupda 14,2+0,6 , sonra 8,4+0,7 ; p<0,001 olmuşdur .Fibrinogen müalicədən əvvəl 4,29+0,08 müalicədən sonra 3,97 +0,06 ; p<0,01 , 2-ci qrupda 4,56+0,13, müalicədən sonra isə 3,77 +0,06; p<0,001 olmuşdur

Şəkil 4. Müayinə olunan xəstələrdə sitokinlərin müalicədən əvvəl və sonrakı dinamikası (dəfə ilə)



Şəkil 5. Müayinə olunan xəstələrdə hemorealoji göstəricilərin dinamikası



Qeyd: 100-şərti olaraq kontrol kimi qəbul olunmuşdur

INR göstəricisində 1-ci və 2-ci yarımqruplar arasında müalicədən əvvəl statistik dürüst fərq olmamışdır . Postinfarkt stenokardiyalı xəstələrdə müalicədən əvvəl bu göstərici 1 –ci və 2- ci qrupdakı xəstələrdə müvafiq olaraq 1.18+0,02 (qrup daxilində variasiya 1,09 -1,48) və 1,14+0,02 (qrup daxilində variasiya 1-1,36) olmuşdur . Bu göstərici hər 2 qrupda kontrol qrupla müqayisədə p<0,001 dürüstlük əmsalı ilə fərqlənmişdir . Kontrol qrupda 1,43+0,06 (qrup daxilində variasiya 1,1-2,1) olmuşdur .Alınan nəticələr göstərir ki, postinfarkt stenokardiyası olan xəstələrin əksəriyyətində (95%) INR norma daxilində olsa da , lakin kontrolla müqayisədə bu göstərici 1,2 dəfə az olmuşdur (p<0,001). Müalicədən sonra isə INR səviyyəsi 1-ci və 2-ci yarim qrupda müvafiq olaraq 1,24 +0,02 və 1,37+ 0,03 olmaqla , müalicədən əvvəlki göstərici ilə müqayisədə statistik əhəmiyyətsiz artmışdır.

Cədvəl 2.

Miokard infarktindan sonraki stenokardiyalarda immun iltihab markerləri və hemorealoji göstəriciləri ilə xəstələrin kliniki laborator göstəriciləri arasında korrelyasiya əlaqələri


Sitokinlər	Yaş	Xəstəliyin agırlıq dərəcəsi	Art. Hip.	Atım Frak.	CRP	Fibrinogen
TNF-a	0,381**	0,357*	0,043	-0,399**	0,276	0,566**
IL-6	0,334*	0,322	0,247	-0,246	0,261	0,605**
IL-8	0,230	0,398**	0,165	-0,396**	0,466**	0,563**
CRP	0,000	0,291*	-0,010	0,361*	----------	0,378**
Fibrinogen	0,154	0,365	0,245	-0,246	0,378**	----------
INR	0,60	-0,250	-0,330*	0,082	-0,232	-0,552**

Sitokinlər	INR	Tnf-a	IL-6	IL-8	Xolesterin	HDL	LDL
TNF-a	-0,242	----	0,912**	0,884**	0,257	-0,013	0,221
IL-6	-0,248	0,912**	----------	0,906**	0,130	0,071	-0,221
IL-8	-0,220	0,884**	0,906**	----------	0,376**	-0,134	0,367
CRP	-0,232	0,261	0,261	0,466**	0,626**	-0,315	0,778**
Fibrinogen	-0,552	0,566**	0,605**	0,563**	0,211	0,024	-0,330

Tədqiqatdan alınmış nəticələri analiz etdikdə görürük ki , hər iki qrupda iltihab markerlərinin səviyyəsi arasında , həmçinin xəstəliyin agırlıq dərəcəsi və hemorealoji göstəricilər arasında yüksək dərəcəli asılılıqlar var


Şəkil 6.

Postinfarkt stenokardiyası olan xəstələrdə müalicədən əvvəl Tnf –alfa və İL-6 arasında korrelyasiya əlaqəsi (n=47)




Postinfarkt stenokardiyası olan xəstələrdə aparılmış korreyativ analiz zamanı Tnf-alfa və IL-6 səviyyəsi arasında gözlənilən sıx qarşılıqlı əlaqə müəyyənləşmişdir (r=0,912 p<0,01)

Şəkil 7.
Postinfarkt stenokardiyası olan xəstələrdə müalicədən əvvəl Tnf –alfa və fibrinogen arasında korrelyasiya əlaqəsi (n=47)




Postinfarkt stenokardiyası olan xəstələrdə aparılmış korreyativ analiz zamanı Tnf-alfa və fibrinogen səviyyəsi arasında gözlənilən sıx qarşılıqlı əlaqə müəyyənləşmişdir (r=0,566,p<0,01)

Şəkil 8
İL-6 fibironogen arasinda korrelyasiya əlaqəsi (n=47)



Xəstələrdə aparılmış korreyativ analiz zamanı IL-6 və fibrinogen səviyyəsi arasında gözlənilən sıx qarşılıqlı əlaqə müəyyənləşmişdir (r=0605, p<0,01)

Şəkil 9 .
Xəstəliyin agırlıq dərəcəsi ilə CRP arasında asılılıq (n=47)



Xəstələrdə aparılmış korrelyativ təhlil zamanı agırlıq dərəcəsi nisbətən yüksək olan xəstələrlə CRP arasında r=0,291 p<0,05 kimi korrelyasiya əlaqəsi müəyyənləşib

Nəticələrin müzakirəsi . Bizim tərəfimizdən miokard infarktının residivləşməsi zamanı sitokinlərdən İL-6 və TNF-alfanın hipersekseriyası müəyyən edilmişdir. Onun maksimal kəmiyyətləri 3 və 4 -cü sinif sakitlik stenokardiyası zamanı müəyyən edilmişdir. Əldə olunmuş nəticələr Mİ-nin agırlaşmış gedişatının İL-6, TNF-alfa və CRZ səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi ilə assosiasiya olundugunu və TNF-alfa miqdarının troponin T və digər ferment göstəricilərindən daha sürətlə artıgını göstərən ədəbiyyat məlumatları ilə uzlaşır [5,9] . Bizim tədqiqatda selektiv olaraq iltihabeləyhinə və immunomodulyatorla müalicənin optimallaşdırılması qanda iltihab markerlərinin səviyyəsinin digər qrupla (yalnız ənənəvi mualicə alan qrup)) müqayisədə statistik dürüst azalmısına , qanın hemorealoji parametrlərinin yaxşılaşmasına , antianginal preparatların sutkalıq dozasının azalmasına səbəb olmuşdur . Proiltihab sisitokinərinin ÜIX-nin agır gedişatı ilə assosiasiya olunanan yüksək hasilatından xəbər verən əldə olunmuş məlumatlar TNF –alfa, İl-6 və İL-8 nin hipersekresiyasının UİX-nin klinik gedişatının formalaşması və şiddətlənməsində mühüm rolunu vurgulayır . Təqiqatın nəticələri iltihab mediatorlarının təkcə qan plazmasında deyil həm də funksiyaları pozulmuş miokardda da yüksək ekspressiyasını göstərən ədəbiyyat məlumatları ilə uzlaşir [11].

Bütün bunları nəzərə alaraq postinfarkt stenokardiyalarda xəstəliyin hipersitokinemiya ilə assosiasiya olunmuş gedişatında farmakoterapiyanın immunomodulyator selektiv iltihabəleyhinə preparatlarla optimallaşdırıması məqsədəuyğundur.

Hesab etmək olar ki, TNF-alfa, İL-6 , kəskin faza mediatorlarının və hemorealoji göstəricilərin (fibrinogen və s) eyni zamanda müəyyən edilməsi miokard infarktının residivləşməsi, xəstəliyin gedişatinin agırlıgı və proqnoz haqqında daha tam təsəvvür əldə etməyə imkan verəcək.

Maliyyə mənbəyi : yoxdur.

Maraqların toqquşması : yoxdur.

Ədəbiyyat siyahısı

1. Ross R. The pathogenesis of atherosclerosis : a perspective for the 1990s . Nature 1993;(362): 801-809
2. Albert, C.M. Prospective study of C-reacive protein, homocystein and plasma lipid levels as predictops of sudden cardiac death. C.M. Albert, J. Ma, N. Rifai [et al.].Circulation. – 2002;(105) : 2595 - 2599.
3. De Meyer GR, Herman AG. Vascular endothelial dysfunction. Prog Cardiovasc Dis 1997;(39) :325-42
4. Gaspardone A, Crea F, Versaci F, et al. Predictive value of C-reactive protein after successful coronary-artery stenting in patients with stable angina. Am J Cardiol 1998; (82):515–8
5. Кушхова, Д.Х. Клиническое значение определения в крови фактора некроза опухоли-α у больных ишемической болезнью сердца. / Д.Х. Кушхова, О.П. Шевченко, Л.В. Харламова, Л.В. Дайбанырова, А.О. Шевченко. Вестник РГМУ. - 2009 ; (2) : 6 - 9.
6. Богова, Т.Е. Инфаркт миокарда. Воспаление и прогноз. Российский кардиологический журнал. – 2003; (4): 95 - 97.
7. Feldman M, Jialal I, Devaraj S, Cryer B. Effects of low-dose aspirin on serum C-reactive protein

and thromboxane B2 concentrations: a placebo controlled study using a highly sensitive C-reactive protein assay. J Am Coll Cardiol 2001; (37): 2036-41.
8. Ridker PM, Cushman M, Stampher MJ, Tracy RP, Hennekens CH. infammation, aspirin and the risk of cardiovascular disease in apparently healthy man. N Eng J Med 1997; 336 (14): 973-979
9. Бондарь, Т. П. Исследование этапов воспаления у больных с ОКС с помощью определения цитокинов. Т. П. Бондарь, Т.В. Цогоева.// Новости « Вектор- Бест». – 2005; (38): 26 – 30
10. Кушхова, Д.Х. Клиническое значение определения в крови фактора некроза опухоли-α у больных ишемической болезнью сердца. / Д.Х. Кушхова, О.П. Шевченко, Л.В. Харламова, Л.В. Дайбаныровa, А.О. Шевченко. Вестник РГМУ. – 2009; (2) : 6 - 9.
11. Kazmierczak, S. Grajek, J. Kowal et al., "Prognostic usefulness of IL-6 and VEGF for the occurrence of changes in coronary arteries of patients with stable angina and implanted stents," European Review for Medical and Pharmacological Sciences- 2014 ; (15): 2169–2175

RESUME

Dynamics, correlation relationship of immune –inflammation markers and hemo-rheological indicators in patients after optimization treatment in patients with post-infarkt angina

Panahova N. A.

Department of Clinical Pharmacology. Azerbaijan Medical University. Baku. Azerbaijan

The aim is to determine dynamics and correlation relationship of immune-inflammation markers and hemorheological indicators in patients before and after optimized treatment in patients with post-infarct stenocardia.

Material and methods. 47 patients having re-stenocardia within 3-6 months (half-severe stage) after myocardial infarct have been included to the research. Control group is composed of 15 practical healthy persons. Average age group of the patients has been 59,9±1,1 of 41 men (87,2%), 6 women (12,8%). Rheological indicators (fibrinogen, thrombin time, INR) of blood are studied among immune-inflammation markers (Tnf-alpha, IL-8, CRP) in the patients.

Result. According to the results of done research, destabilization of disease in patients with (half-severe stage) post-infarct angina has been characterized by hypersecretion of cytokine system (TNF-alpha, IL-6, IL-8) and statistically exact growth of severe phase mediators (C-reactive protein, fibrinogen) in comparison with practically healthy people and chronic heart ischemic disease. During correlative analysis intense correlation expected as r=0,912 between TNF-alpha and IL-6, p<0,01; r=0,466, p<0,01 between CRP and IL-8; ; r=0566, p<0,01 between TNF-alpha and fibrinogen; ; r=0,466, p<0,01 between IL-8 and CRP; ; r=0,605, p<0,01 between IL-6 and fibrinogen is determined in the patients (n=47)

Key words: Post-infarct angina, immune-inflammation reactions, sytokine system, severe phase mediators.

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
Orijinal məqalə
Səh. 49-53

16-21 yaşlı qızlarda çanağın pelviometrik indekslərinin xüsusiyyətləri

***Qanbayeva Ş.F., Xıdırıov E.Ə.*[1]**

[1]İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün :** Bakı, AZ1022, S.Vurğun küç 41, Email: medun91@mail.ru

İşin məqsədi - Gənclik yaş kateqoriyasında normal və dar çanaqlar üzərində pelviometrik parametrləri və indeksləri təyin etməkdən ibarətdir.

Tədqiqatın material və metodları: Tədqiqatın materialına daxil edilmiş çanaq qrupları aşağıdakılardan ibarət olmuşdur: normal formalı çanaqlar (14 ədəd), ümumi bərabər daralmış (6 ədəd) və köndələn daralmış (6 ədəd) formalar. Köndələn diametri 11,8 sm-dən az və kiçik çanaq çıxacağının köndələn diametrinin ölçüləri 10,5 sm-dən az çanaqlar köndələn daralmış formaya aid edilmişlər. Digər parametrlərin (həqiqi konyuqata, diaqonal konyuqata, köndələn diametr, daraqarası məsafə, geniş hissənin köndələn ölçüsü və s.) orta göstəricilərdən 1,5 sm-dən az olmasına görə onları çanağın ümumi bərabər daralmış formasına aid etmişik.

Nəticələr. Aparılan tədqiqatlar nəticəsində əldə olunmuş məlumatlara görə, parametrlərin maksimal göstəriciləri daha çox normal formalı çanaq qrupunda təsadüf olunmuşdur. Minimal göstəricilərə isə ümumi bərabər daralmış çanaq formasında daha tez-tez rast gəlinir. pelviometrik əlamətlər üzrə gənclik yaş dövründə statistik əhəmiyyətli fərqlər qeyd olunur. Bu zaman qeyd edilmiş parametrlər üzrə nəinki dar və normal formalı çanaqlar, eləcə də dar konfiqurasiyalı çanaqlar öz aralarında fərqlənir. Pelviometrik əlamətlərin maksimal göstəriciləri normal çanaqlar qrupunda müşahidə olunur, minimal göstəricilər isə ümumi bərabər daralmış çanaqlar qrupunda müəyyən edilir. Köndələn daralmış formalar bu yaş qrupunda parametrlərin ədədi göstəricilərinə əsasən aralıq mövqe tuturlar.

Açar sözlər : gənc qızlar, çanaq, pelviometrik indekslər.

İşin məqsədi - 16-21 yaşlı qızlarda çanağın pelviometrik indekslərinin xüsusiyyətləri öyrənilməsi olmuşdur.

Material və metodlar. Bu məqsəd üçün standart antropometrik ölçü alətlər toplusundan istifadə olunmuşdur: tazomer, sürüşkən pərgər və santımetrlənmiş ölçü parçası. Tozomer spesifik ölçü aləti olub şkala ilə təchiz olunmuşdur. Şkala pərgər ayaqlarının arasında onlara perpendikulyar yerləşir və üzərində santimetr və millimetr bölgüləri vardır. Eyni zamanda şkala ayaqlardan birinə bağlanmışdır və onunla birgə hərəkət edir. O biri ayağa şkala səviyyəsində hərəkətsiz göstərici birləşmişdir. Tazomerin ayaqcıqlarının sonunda düymələr vardır ki, onlar çanaq və insan bədəninin səthləri üzərindəki nöqtələrə qoyulur. Ölçülər üçün nöqtələr ya karandaşla yada markerlə qeyd olunur. Digər tərəfdən ölçü aparmaq üçün ayaqcığın hərəkəti zamanı şkala göstəricinin altına keçir və nəticədə ölçü məsafəsini göstərir. Tədqiqat zamanı bizim tərəfimizdən aşağıdakı ölçmələr aparılmışdır.

1. Anatomik konyuqata- oma burnu ilə qasıq bitişməsinin yuxarı kənarı arasında olan məsafə.

2. Həqiqi konyuqata- oma burnu ilə qasıq bitişməsinin boşluğa doğru daha çox çıxan nöqtəsi arasındakı məsafə.

3. Dioqanal konyuqata - oma burnu ilə qasıq bitişməsinin aşağı kənarı arasındakı məsafə.

4. Kiçik çanaq boşluğunun çıxacağının düz ölçüsü (çıxacaq-konyuqatası) – qasıq bitişməsinin aşağı kənarının boşluğa doğru çıxan nöqtəsi ilə büzdüm zirvəsi arasındakı məsafə.

5. Köndələn diametr - qövsi xəttin ən uzaq nöqtələri arasındakı məsafə.

6. Çəp diametr - bir tərəfin oma-qalça oynağı ilə digər tərəfin qalça-qasıq hündürlüyü arasındakı məsafə.

7. Daraqarası məsafə - qalça sümüyünün daraqları arasındakı maksimal məsafə.

8. Kiçik çanaq boşluğunun çıxacağının köndələn ölçüsü - oturaq qabarlarının daxili səthləri arasındakı maksimal məsafə.

9. Çanaq hündürlüyü - oturaq qabarından qalça sümüyü qabarının ən hündür nöqtəsi arasındakı məsafə.

10. Tinarası məsafə - qalça sümüyünün ön yuxarı tinləri arasındakı məsafə.

11. Kiçik çanaq boşluğunun enli hissəsinin düz ölçüsü-qasıq bitişməsinin boşluğa doğru çıxan nöqtəsi ilə II və III oma fəqərələrinin arasındakı məsafə.

12. Kiçik çanaq boşluğunun enli hissəsinin köndələn ölçüsü - sirkə kasaının ən uzaq nöqtələri arasındakı məsafə.

13. Kiçik çanaq boşluğunun dar hissəsinin düz ölçüsü - qasıq bitişməsinin ən aşağı nöqtəsi ilə oma-büzdüm oynağının ortası arasındakı məsafə.

14. Kiçik çanaq boşluğunun dar hissəsinin köndələn ölçüsü - oturaq sümüklərinin daxili səthləri arasındakı yaxın məsafə.

Morfometrik parametrlər xüsusi pelviometrik blankda qeydə alınmışdır. Ölçmələrin nəticələri ümumiləşdirilərək Excel (14.10.2011-ci il versiyası) proqramında yaradılan elektron bazaya daxil edilmişdir.

Nəticələr: Aparılan tədqiqatlar nəticəsində əldə olunmuş məlumatlara görə, parametrlərin maksimal göstəriciləri daha çox normal formalı çanaq qrupunda təsadüf olunmuşdur. Minimal göstəricilərə isə ümumi bərabər daralmış çanaq formasında daha tez-tez rast gəlinir. Köndələn diametr (10,43 sm) çanaq hündürlüyü (20,88 sm) parametrləri köndələn daralmış çanaq formasında minimal; həqiqi konyuqata (11,38 sm), çanağın dar hissəsinin köndələn ölçüsü (10,40 sm) və daraqarası məsafə (10,67 sm) parametrləri isə maksimal olmuşdur. Beləliklə, osteometrik nəticələrin analizi çanaq ölçüləri ilə onun forması arasında hər-hansı gözlənilməz tendensiyanı müəyyən etməmişdir. Çanağın dar formaları üçün pelviometrik əlamətlərin aşağı, normal formaları üçün isə yüksək ədədi göstəriciləri xarakterik olmuşdur. İndeks göstəriciləri çox maraqlı olmuşdur. Belə ki, normal qrupa aid edilmiş çanaqlarda ÇHEİ (çanağın hündürlük-en indeksi) və KÇKBİ (kiçik çanağın köndələn-boylama indeksi) minimallar cərgəsinə düşmüşdür (müvafiq olaraq Xor=78,8 və Xor=99,1); lakin çanağın ümumi bərabər daralmış forması qrupunda bu indekslər maksimal olmuşdur – Xor=87,0 və Xor=114,4. Bu zaman ÇHİ (çanaq halqası indeksi) üçün ən yüksək göstəricilər çanağın köndələn daralmış forması qrupuna aiddir (Xor=109,8; Xor=128,4), digər formalarda ÇHİ, demək olar ki, üst-üstə düşmüşdür (Xor=83,6-normal formalar və Xor=83,2-ümumi bərabər daralmış formalar üçün). Başqa sözlə, indekslərin göstəricilərinə əsasən qadın çanağının müxtəlif konfiqurasiyalarının differensiasiya imkanlarını göstərən əlamətlər artıq müəyyən olunur.

Aparılan dispersion analizin nəticələri çanağın müxtəlif formaları zamanı pelviometrik parametrlərin arasında statistik əhəmiyyətli fərqlərin olduğunu təsdiqləyir. Yalnız iki əlamət - simfosakralis məsafəsi və çanaq hündürlüyü üzrə qruplar arasında fərqlər müəyyən olunmamışdır. Bundan əlavə, daraqarası məsafəni də qeyd etmək lazımdır ki, bu halda fərqlər əhəmiyyətliliyin 0,01 qiymətində etibarlı deyil. Beləliklə, tədqiq olunmuş 14 pelviometrik əlamətin 11-də parametrlər bir-birindən etibarlı olaraq fərqlənir. Bir qayda olaraq əlamətlərin fərqlərinin orta göstəriciləri 1,5 sm olmuş və 1-3 sm arasında variasiya etmişdir. Bütün bunları nəzərə alaraq, tədqiq etdiyimiz seçim qrupunun 3 yarımqrupa - normal formalı, ümumi bərabər daralmış və köndələn daralmış formalarına bölünməsi statistik analizin nəticələri ilə də təsdiqlənir.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdurki, gənclik yaş qrupunda əldə etdiyimiz nəticələrin statistik işlənməsi müyyən qədər gözlədiyimizlə düz gəlmirdi. Belə ki, normal qrupda yalnız 10 əlamətin orta göstəriciləri digər qruplardan yüksək olmuşdur (anatomik konyuqata, köndələn və çəp diametrlər, çanağın enli hissəsinin düz və köndələn ölçüləri, çanağın dar hissəsinin köndələn ölçüsü, kiçik çanaq boşluğu çıxacağının köndələn və boylama ölçüləri, simfosakralis məsafəsi, daraqarası məsafə). Digər parametrlər ya çanağın köndələn daralmış formasında (əsasən), ya da ümumi bərabər daralmış formada çox olmuşlar. Sonuncu qrupda orta göstəricilərin maksimal qiymətləri yalnız çanaq hündürlüyünə (Xor=22,25), eləcə də iki indeksə - ÇHEİ və KÇKBİ mənsub olmuşdur (müvafiq olaraq Xor=88,9 və Xor=125,8). Bununla yanaşı, parametrlərin minimal qiymətləri yalnız dar formalı çanaqlarda müşahidə olunmuşdur; KÇKBİ istisna olmaqla, bu indeks normal formalı çanaqlar qrupunda ən az olmuşdur (Xor=103,7).

Lakin, yenə də qeyd etmək lazımdır ki, ümumən orta göstəricilər üzrə disbalans müşahidə edilməmişdir. Yalnız kiçik çanaq çıxacağının köndələn və boylama ölçüləri, eləcə də həqiqi konyuqata və çanaq hündürlüyü parametri 1 sm-dən çox bir-birindən fərqlənir. Bu sözləri indekslər barədə demək olmaz; onlar bir-birindən daha böyük rəqəmlərlə fərqlənirlər. Bu zaman onların variasiyalılığı da çanağın bütün formalarında ən yüksək qiymətlərə malik olmuşdur. Qeyd edək ki, dispersiyanın ən böyük qiymətləri çanağın ümumi bərabər daralmış formasında müşahidə edilmişdir (12 parametrdə və hər üç indeksdə). Yalnız iki halda – simfosakralis və daraqarası məsafələrdə yüksək variasiyalılıq çanağın köndələn daralmış formasında müəyyən olunmuşdur (müvafiq olaraq: S=1,36 və S=1,17). Kiçik çanaq çıxacağının boylama ölçüsündə ən yüksək dispersiya (S=0,97) normal formalı çanaqda müşahidə edilmişdir.

Tədqiqatımızın bu hissəsinin yekununda demək lazımdır ki, pelviometrik əlamətlər üzrə gənclik yaş dövründə statistik əhəmiyyətli fərqlər qeyd olunur. Bu zaman qeyd edilmiş parametrlər üzrə nəinki dar və normal formalı çanaqlar, eləcə də dar konfiqurasiyalı çanaqlar öz aralarında fərqlənir. Pelviometrik əlamətlərin maksimal göstəriciləri normal çanaqlar qrupunda müşahidə olunur, minimal göstəricilər isə ümumi bərabər daralmış çanaqlar qrupunda müəyyən edilir. Köndələn daralmış formalar bu yaş qrupunda parametrlərin ədədi göstəricilərinə əsasən aralıq mövqe tuturlar.

Maliyyə mənbəyi : yoxdur.
Maraqların toqquşması : yoxdur.

Ədəbiyyat siyahısı

1. Демарчук Е.Л. Анатомо-антропологические особенности организма и размеры таза женщин на юношеском этапе онтогенеза : диссер. канд. мед. наук. Новосибирск, 2004.- 132 с.
2. Киселевич М.Ф., Слухина В.Д., Япринцева Е.Г. Течение беременности и родов у женшин с узким тазом. Научные ведемости Белгородского государственного университета. //Серия медицина, фармация. 2012, №4(123), с. 51-54.
3. Лопатина Л.А., Сереженко Н.П., Анохина Ж.А. Антропометрическая характеристика девушек по классификации Дж. Таннера. //Фундаментальные исследования, 2013, № 12(3), с. 504–508.
4. Мудров В.А., Чацкис Е.М., Нижеградцева Д.А. Роль ультразвуковой пельвиометрии в диагностике анатомически клинически узкого таза. //Журнал акушерства и женских болезней. Чита, 2017, т.66(вып6), с. 20-29.
5. Стрелкович Т.Н., Медведева Н.И., Хапилина Е.А. Антропометрическая характеристика таза женщин в зависимости от соматотипа.// В мире научных открытий, 2012, № 2(2), с. 60–73.
6. Сырова О.В., Загоровская Т.М., Андреева А.В. Взаимосвязь антропометрических параметров с размерами таза у девушек 17-19 лет. Морфология, 2008, т. 133, №3, с. 45–47.
7. Труфанов Г.Е. Диагностика "стертых" форм узкого таза методом магнитно-резонансной пельвиометрии научное издание // Бюл. ФЦСКЭ. - 2012. - N 1. - С. 74-81 .
8. Шмедык, Н.Ю. Рязанов В.В. Вихтинская И.А. МР-пельвиметрия и фетометрия у беременных в диагностике риска клинически узкого таза, , // «Невский радиологический форум 2013». Мат. конференции. - СПб., 2013. - С. 164.
9. Шмедык, Н.Ю. Рязанов В.В., Инатов В.В. Диагностика различных форм и степеней суженного таза у беременных: сравнение результатов магнитно-резонансной и наружной пельвиметрии, // Вестн. Росс. Военно-медицинской академии, № 4 (48). - 2014. -с. 37-41.
10. Sibony, O. Alran S. Vaginal birth after cesarean section: X-ray pelvimetry at term is informative // Journal of perinatal medicine. – 2006. – № 3. – P. 212–215.

RESUME

Characteristics of pelviometric indices of the pelvis of girls 16-21 years

Ganbaeva Sh.F. Khidirov E.A.

Department of Human Anatomy and Medical Terminology. Azerbaijan Medical University. Baku. Azerbaijan

The aim of the study is to determine the pelvicometric parameters and indexes on normal and narrow bowls in the age category.

Materials and Methods: Blood groups included in the study material consisted of: normal shaped bowls (14), commonly narrowed (6) and transverse shortened (6) forms. The diameters of the cross-section diameter of less than 11.8 cm and the small bowl outlet are less than 10.5 cm in the narrow, narrowed form. Because we have less than 1.5 cm of average values, we have included them in the common equilibrium form of the bowl (other than the true cone, diagonal conjuncture, diagonal diameter, spanner axis, width of the transverse dimension, etc.).

Conclusions: Results. According to the results obtained, the maximum parameters of the parameters were more commonly found in the normal patch group. Minimal indicators are more frequently found in the commonly narrowed pelvic form. There are statistically significant differences in pelviometric signs of youth. At this time, not only narrow and normal shaped bowls, but also narrow configuration bins differ in the parameters. The maximum values of pelvometric symptoms are observed in the normal bowel group, and the minimum values are determined in the group with a narrow contraction. Crossed shrink forms take intermediate positions in this age group on the numerical parameters.

***Key words*:** Young girls, bowel, pelviometric indexes

Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
Orijinal məqalə
Səh. 63-68

Orqanizmdə müxtəlif situasiyalar zamanı qalxanabənzər vəzinin normal və patomorfoloji xüsusiyyətlərinin təsviri

Rüstəmova S.M.[1]

[1]İnsan anatomiyası və tibbi terminologiya kafedrası. Azərbaycan Tibb Universiteti. Bakı. Azərbaycan

Nəşr tarixi: may 2019

***Əlaqə üçün:** AZ 1130**.** Bakı şəhəri, 7-ci mkr, ev 4, mən. 35. E-mail: sadagat.rustamova@mail.ru

Məqsəd: İnsanda və eksperimentdə qalxanabənzər vəzinin morfoloji xüsusiyyətlərinin müəyyən edilməsi işin əsas hissəsini təşkil edir.

Material və metodlar: Tədqiqat materialları 25-70 yaşlar arasında olan 28 xəstədən, 11 insan cəsədlərindən və eksperiment şəraitində 20 ağ siçovuldan götürülmüşdür.Preparatdan götürülmüş kəsiklər hematoksilin-eozinlə boyanmış, toxumanın vəziyyətini öyrənmək üçün Bilşovski – Qross üsulu ilə gümüşlə impreqnasiya metodundan istifadə edilmişdir.

Nəticələr: 8 nəfər insanda qalxanabənzər vəzinin sağ və sol paylarında simmetrik və asimmetrik formalar müəyyən edildi. Yaşlı insanların qalxanabənzər vəzisində simmetrik paylara malik vəzilərin kişilərdə qadınlara nisbətən üstünlük təşkil etməsi qeyd edildi. Yetkinlik və ahıl dövrlərdə olan kişi və qadınlarda quruluş etibarilə asimmetriya daha çox vəzinin sol payında nəzərə çarpdı. IV. Qadınlara nisbətən kişilərdə müxtəlif formalı vəzi payları daha az rast gəlindi. Eksperimentdə qalxanabənzər vəzinin morfoloji göstəriciləri və funksional fəaliyyətində baş verən dəyişikliklərin qıcığın verilmə dərəcəsi və müddətindən asılı olaraq fazalı xarakter daşıması qeyd edildi.abənzər vəzidə meydana çıxan bəzi morfoloji dəyişikliklər orqanizmin reaktivliyinin və orqanizmin xarici qıcıqlara qarşı olan reaksiyasının göstəricisidir.elmi-tədqiqat işində insan meyitlərindən götürülmüş 28 qalxanabənzər vəzidən istifadə olunmuş və preparatlar hematoksilin-eozinlə boyanmışdır. Preparatların histoloji müayinəsi nəticəsində kişilərdə və qadınlarda follikulların diametrində fərqlər müşahidə edildi.qalxanabənzər vəzi follikullarının diametrlərindəki fərq artma və azalma ilə müşahidə olunur. Əldə edilmiş nəticələr qalxanabənzər vəzinin morfometrik göstəricilərinin müqayisəli təhlili ilə vacibdir.

Açar sözlər: Qalxanabənzər vəzi, tiroksin, hormonlar.

Giriş. Uzun illər aparılan bir sıra tədqiqatlarda alimlər bədəndə hərəkətin məhdudlaşdırılması fonunda stress reaksiyasının tətbiqi zamanı qalxanabənzər vəzinin əhəmiyyətini xüsusilə vurğulayırlar [1-6]. Bu mənada insan orqanizminə təsir edən qıcıqlandırıcı amil kimi, həm qısa müddətli, həm də xroniki surətdə davam edən stress nəticə etibarilə müəyyən dəyişikliklərin meydana çıxmasında əsas hesab edilir. Bu ən çox həyəcanlanma vəziyyətində və stress zamanı, xroniki emosional şəkildə büruzə verilən amillərə də şamil edilə bilər [1,7-15].

Qeyd edilən sahədə əksər tədqiqatlar eksperimentdə aparılmaqla ayrı-ayrı praktiki materiallarda öz əksini tapmışdır. Müxtəlif vəziyyətlərdə qalxanabənzər vəzinin patomorfoloji təsviri onun haqqında tam təsəvvürün formalaşmasını təmin etməklə yanaşı

orqanizmin uyğunlaşma proseslərində mühüm rol oynayan orqan kimi təmsil olunmasını da müəyyənləşdirmiş olur.

Tədqiqatın məqsədi: Qalxanabənzər vəzinin böyümə dərəcəsindən asılı olaraq müvafiq surətdə boyunda sıxılma və mexaniki asfiksiya nəticəsində qalxanabənzər vəzidə morfoloji dəyişikliklərin müəyyənləşdirilməsi işin əsas hissəsini təşkil edir.

Material və metodlar: Məqsədə uyğun olaraq tədqiqat materialları 25-70 yaşlar arasında olan insan cəsədlərindən götürülmüş 38 qalxanabənzər vəzi preparatlarından ibarət olmuşdur. Qalxanabənzər vəzi nəfəs borusunun yuxarı hissəsi və dilatı sümüklə bərabər bir kompleks olaraq götürülmüşdür. Materiallar 5% formalin məhlulunda saxlanılmışdır. Orqanın ölçüləri, həcmi, payların vəziyyəti öyrənilmişdir. Əldə edilən kəsiklər hematoksilin-eozinlə boyanmış, toxumanın vəziyyətini öyrənmək üçün Bilşovski – Qross üsulu ilə gümüşlə impreqnasiya metodundan istifadə etmişik.

Nəticələr: Qeyd edilən istiqamətdə neyro-endokrin sistem orqanizmdə adaptasiya effekti yaratmaq üçün xidmət edən bir funksional vahid kimi əsas götürülə bilər.

Tədqiqatlar nəticəsində 8 qalxanabənzər vəzinin bir sıra variantları aşkar edildi. Qalxanabənzər vəzinin sağ və sol paylarının formasının qiymətləndirilməsi baxımından simmetrik (sağ və sol payların forma uyğunluğu) və asimmetrik (sağ və sol payların fərqli forması) olması müəyyən edildi.

Yaşlı insanların qalxanabənzər vəzisində simmetrik paylara malik vəzilərin kişilərdə qadınlara nisbətən üstünlük təşkil etməsi nəzərə çarpır. Həm kişilərdə, həm də qadınlarda simmetrik paylara malik vəzilər orta dərəcədə rast gəlinir.

Qeyd edilən yaş qruplarında kişilərdə və qadınlarda quruluş etibarilə asimmetriya daha çox vəzinin sol payında nəzərə çarpdı. Qadınlara nisbətən kişilərdə müxtəlif formalı vəzi payları daha az rast gəlindi.

Məlum olduğu kimi, qalxanabənzər vəzi toxumasının həyati dövrdə əhəmiyyətli dəyişikliklərə məruz qalması orqanın parenximasını təşkil edən komponentlərin kompleks birləşməsi, eləcə də cinsiyyət və yaşdan asılı olaraq müəyyən edilə bilər.

Preparatların histoloji müayinələri nəticəsində, kişilərdə follikulların diametrində yaşla əlaqədar orta hesabla azalma, qadınlarda isə nisbətən artma müşahidə olundu. Yaşlı kişilərdən fərqli olaraq follikulların diametri, bütün dövrlərdə böyük olması ilə nəzərə çarpdı. Qalxanabənzər vəzi follikullarının orta diametrlərindəki fərq bir qismində azalma, digərində isə artım müşahidə olunması ilə rast gəlinir.

Vəzidə follikulyar asimmetriyanın təhlili zamanı qocalıq dövrü ilə müqayisədə kişilərdə diametrin artması, qadınlarda isə azalması, yetkinlik dövrünün birinci və ikinci mərhələlərində isə qadınlarda follikul diametrinin artması qeyd edilir.

Stress amilinin təsiri ilə eksperiment şəraitində 20 ağ siçovul üzərində aparılan tədqiqatlarda qalxanabənzər vəzinin morfoloji göstəriciləri və funksional fəaliyyətində baş verən dəyişikliklərin qıcığın verilmə dərəcəsi və müddətindən asılı olaraq fazalı xarakter daşıması qeyd edilir. Belə ki, təcrübə heyvanlarında qalxanabənzər vəzinin parenximasında, orta və kiçik diametrli follikulların diametrlərində, böyük diametrli follikulların isə kolloid səviyyəsində stress amilinin təsirindən fərqlər müşahidə edildi. Mütəmadi olaraq, 4 həftə ərzində stressə məruz qalan heyvanların follikullarında, eləcə də, say

artdıqca, tək follikullarda, epiteldə deskvamasiya əlamətləri aşkar edildi, lakin artan epitel hüceyrələrinin hündürlüyü və sekretor effektivliyinin yüksəkliyinin ilk iki həftəyə nisbətən az olması müəyyən edildi.

Bu dövrdə qan damarlarında baş verən dəyişiklikləri müşahidə edərkən arteriolların diametrinin genişlənməsi ilə fərqləndiyi nəzərə çarpdı. Periferik qan damarlarında sıxılma müşahidə olunsa da, limfosirkulyator şəbəkənin genişlənməsi qeyd edildi.Göstərilən müddətdə qalxanabənzər vəzidə interstisial ödem əlamətləri, bazofillərin deqranulasiyası və onların sayının artması müşahidə olundu.

Bir ay müddətində stressə məruz qalan orqanizmlərdə baş verən dəyişiklikləri izlədikdə distrofik proseslərin epitel boşluğuna keçməsi müşahidə olundu. Eyni zamanda qalxanabənzər vəzinin funksional fəaliyyətində azalma, metabolizmin intensivliyinin, o cümlədən kapillyarlarin diametrinin kiçilməsi nəzərə çarpdı ki, bu da qan axınının sürətinə təsir edərək dövr edən qanın həcminin azalması ilə nəticələnmiş oldu. Stress təsiri ilə arteriol divarının qalınlığının artması, perifollikulyar qan kapillyarlarında qeyri-bərabər genişlənmənin olması nəzərə çarpdı. Kapillyarların genişlənməsi qanla tirositlər arasındakı mübadilə sahəsinin artmasına şərait yaratmaqla, hormon sintezi və ifrazını təmin edir. Stress amilinin təsiri nəticəsində qan plazmasında TSH səviyyəsində də artım müşahidə olunduğu müəyyən edilmişdir. Stress yaradılmış orqanizmlərdə qalxanabənzər vəzinin sekretor fəaliyyətinin artması diqqətdən yayınmır.

Tədqiqatlarımızda qalxanabənzər vəzinin mərkəzi hissəsində genişlənmiş kapillyarlar olsa da, periferik sahələr “ damarsız zonalar “ kimi xarakterizə olunur. Paycıqarası və postkapillyar venulalar da diametrin artması ilə fərqlənir.

Eksperimentdə perifollikulyar qrupların diametrinin azalması və daralması ilə yanaşı venoz sistemdə genişlənmə qeyd olundu. Həmçinin stromada ödem əlamətlərinin aşkar edilməsi nəzərə çarpdı. Qeyd edilən ödem nəticəsində toxuma bazofillərində deqranulyasiya müşahidə olundu və kürəvi formaya malik olanlar daha tez-tez rast gəlinmiş oldu. Beləliklə, kapillyarların mənfəzində baş verən dəyişikliklər, endoteliositlərdə kiçilmə, xromatin nüvəsinin kondensasiyası, kariolemmanın qeyri-bərabər kontura malik olması stress reaksiyasının təzahürü kimi nəzərə çarpır.

Apardığımız elmi tədqiqatlarda qalxanabənzər vəzinin hüceyrəvi elementlərinin morfoloji dəyişikliyi ilə orqanizmin struktur homeostazı arasındakı qarşılıqlı əlaqələrin lazımi səviyyəsinin asılılılıq dərəcəsi müəyyən edilmişdir. Yuxarıda qeyd edilən proseslər homeostaz ilə əlaqəli şəkildə cərəyan edir və professor V. B. Şadlinski tərəfindən müəyyən edilən, qalxanabənzər vəzinin morfofunksional vahidi olan tiromorfokompleksdə hüceyrəvi elementlərin dinamik dəyişkənliyi fonunda cərəyan edə bilər. Qeyd edilən tədqiqatlarda qalxanabənzər vəzinin funksional fəallığının müxtəlif səviyyələrini əks etdirən morfoloji xüsusiyyətlərin müəyyən edilməsi əsasdır.

Müvafiq olaraq, canlı orqanizmin əsas funksiyalarından biri xarici mühit şəraitinin dəyişdiyi hallarda bioloji sistemlərin morfofunksional sabitliyinin qorunub saxlanılmasını təmin etməkdir. Bu mənada yaşadığı müddət ərzində hər bir şəxsdə qalxanabənzər vəzi hormonlarının qanda səviyyəsinin müəyyən edilməsi çox əhəmiyyətlidir. İstənilən orqanda, eləcə də

qalxanabənzər vəzidə baş verən funksional proseslərin sabitliyinin qorunması və tənzimlənməsi struktur homeostazın vəziyyəti ilə təmin olunur. Qalxanabənzər vəzidə mikrosirkulyator sistem, özünü tənzimləmə proseslərinin yerinə yetirən ixtisaslaşmış hüceyrələr də daxil olmaqla follikulu əhatə edən stroma elementlərinin, o cümlədən follikulyar epitelinin proliferativ dəyişiklikləri də qeyd oluna bilir. Struktur homeostazı əks etdirən metabolik proseslərin təmin olunması sistem elementlərinin optimal vəziyyəti ilə də şərtlənmiş olur. Qalxanabənzər vəzinin hormonları embrional dövrdən tutmuş insanın bütün həyatı boyunca orqanizmin normal həyat fəaliyyətinin tənzimlənməsində əsas rol oynayır. Yuxarıda göstərilənləri nəzərə alaraq qalxanabənzər vəzinin əsas xüsusiyyətlərini morfoloji və funksional baxımdan xarakterizə etmək mümkündür.

1.Qalxanabənzər vəzidə baş verən müəyyən morfofunksional dəyişikliklər bədən reaktivliyinin, eyni zamanda xarici və daxili mühitin insanlara və insanların mühitə göstərdiyi qarşılıqlı təsirin nəticəsi kimi meydana çıxmaqla orqanizmin kənar qıcıqlara qarşı kifayət qədər cavabının göstəricisi hesab edilir.

2. Fiziki, eyni zamanda xarici iqlim amillərinin uzunmüddətli, həm də kompleks təsirləri ilə orqanizmdə, xüsusilə qalxanabənzər vəzidə baş verən morfoloji dəyişikliklər problemin zəruriliyini müəyyən edir.

3.Qalxanabənzər vəzinin morfometrik göstəricilərindən istifadə etməklə alınan nəticələrin müqayisəli şəkildə təhlilinin həyata keçirilməsi vacib şərtlərdəndir.

Yekun: Həyat dövründə ətraf aləmlə insan orqanizmi arasındakı qarşılıqlı əlaqələr, adaptasiya prosesləri, eyni zamanda sabit tənəzzül dərəcəsi ilə xarakterizə olunan situasiyalar və davamlı şəkildə cərəyan edən gərginliklər nəticəsində meydana çıxan dəyişikliklər zamanı xüsusilə qalxanabənzər vəzinin əhəmiyyəti qeyd edilir. Qeyd edilən situasiyalarda insanlarda psixo-emosional vəziyyətin barometri kimi, hipotalamo-hipofizar və adrenal sistem də əsas olaraq götürülür.

Maliyyə mənbəyi : yoxdur.
